www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 22 oktyabr 2015-ci il Cümə axşamı № 234 (6262) Qiymıəti 40 qəpik

## Xəbər

**Sumqayıtda dəhşətli qətl: baldız yeznəsini öldürdü**

yazısı səh.14-də

## Gündəm

**Ölkəni silkələyən generalitet həbsləri - dövlət çevrilişinə cəhd, yoxsa...**



MTN-in tutulan zabitlərinin adları açıqlandı; Eldar Mahmudov dövlət içində dövlət yaradıbmış; ittiham olunanların cinayət işində seçkilərə müdaxilə ittihamı nəyə işarədir?

yazısı səh.3-də

**Partiyalar seçim qarşısında - Əli Kərimli, yoxsa Razi Nurullayev...**

yazısı səh.4-də

**Eldar Mahmudovun oğlu rəhbəri olduğu holdinqə gəlmir**

yazısı səh.5-də

**MTN işində "reket media" izi**

yazısı səh.6-da

**477 nəfər deputatlığa namizədlikdən imtina etdi**

yazısı səh.4-də

**Agentlər səfirliklərə necə yol tapır...**

yazısı səh.7-də

**MDB ölkələri üçün İŞİD təhlükəsi...**

yazısı səh.9-da

**"Ermənistanın Qarabağ məsələsində manevr imkanları tükənir"**

yazısı səh.13-də

**Mərkəzi Bank əhalini risk altına qoyur - əmanətlər təhlükədə...**

yazısı səh.12-də

**Özünü 10-cu mərtəbədən atan qız avtomobilin üzərinə düşdü**

yazısı səh.14-də

**Pərviz Həşimli azadlığa çıxa bilərmi?**

yazısı səh.5-də

**Mobil telefonlara göndərilən bezdirici SMS-lərdən necə qurtulmaq olar?**

yazısı səh.15-də

**"Bank Technique" müflisdir, ancaq bu, elan edilmir...**

yazısı səh.11-də

## MTN-də "çistka"nın əsl səbəbi: müdaxilə o qədər vacib olub ki...

# ELDAR MAHMUDOVUN "KÖLGƏ HÖKUMƏTİ"- AÇAR FİQUR HARADADIR?

Sabiq nazirin və onun komandasının bu cür total nəzarətə alınması, bəzilərinin isə həbsi yalnız sahibkarların incidilməsi ilə əlaqəli deyil, bu, təkcə bir epizod, bir pərdədir - bəs əsl sirr nədir...




yazısı səh.8-də

## Kremldən Bakıya yeni Qarabağ şantajı - "B planı" işə salınır?

Cənubi Osetiyanın Rusiya tərkibinə daxil olmaq istəyi Azərbaycana da mesajdır ki, Moskvanın bölgədəki maraqlarına əngəl yaratmasın; şimal qonşumuz "arxa bağça"dan arxayın olmaq istəyir...

yazısı səh.9-da



**"Namiq Abbasovun zamanında belə biabırçılıqlar ola bilməzdi"**

yazısı səh.6-da



Maqsud Mahmudov

**MTN-də şantaj olunan sahibkardan şok açıqlamalar**

yazısı səh.5-də



*Mübariz Mənsimov:*

**"Mənim adım rüşvətdə hallanırsa..."**

yazısı səh.7-də

# 22 oktyabr 2015




## Nəqliyyat sektorunda da səs-küylü həbslər iddiası

### Hüseyn Salamovun həbsi xəbəri yayıldı



**Redaksiyamıza Nəqliyyat Nazirliyinin Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin sabiq rəisi Hüseyn Salamovun həbs edilməsi ilə bağlı məlumat daxil olub. Xəbərdə bildirilir ki, nəqliyyat sektorundakı özbaşınalıqlarla bağlı yoxlamalar başlayıb və ilkin olaraq H.Salamov Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən saxlanılıb.**

Nəzərə çatdıraq ki, H.Salamov avqust ayında işdən çıxarılıb. Bu barədə müsavat.com-un ötən saylarında yazılmışdı. Avqust ayının 3-də Nəqliyyat Nazirliyində keçirilən iclasda nazirliyin bir çox vəzifəli işçiləri buraxdıqları qüsurlara görə işdən çıxarılıb. Nazirliyin tərkibində Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəisi Hüseyn Salamov və 8 nəfər əməkdaş işdən qovulublar.

Qeyd edək ki, həmin görüşdə Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəis vəzifəsinə Elnur Abdullayev təyin olunub. Maraqlıdır ki, həmin müşavirədə Z.Məmmədovun iştirak etmədiyi iddia olunurdu. Hüseyn Salamov Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəisi vəzifəsinə 2014-cü ilin yanvarında təyin edilib.

Nəzərə çatdıraq ki, Avropa Oyunları zamanı H.Salamovun məsul olduğu sahədə ciddi nöqsanlar aşkarlanmışdı, "Atletlər kəndi"ndə baş verən qəzaya görə onun da sorğu-sual edildiyi bildirilirdi.

❑ M.MAHRIZLI

## MTN qurum ətrafında baş verənlərlə bağlı açıqlama yayıb

**Milli Təhlükəsizlik Nazirliyinin ayrı-ayrı vəzifəli şəxsləri tərəfindən vəzifə səlahiyyətlərindən sui-istifadə və yol verilmiş digər qanun pozuntuları faktları üzrə Baş Prokurorluqda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb. Milli Təhlükəsizlik Nazirliyinin İctimai Əlaqələr İdarəsindən APA-ya verilən məlumata görə, Milli Təhlükəsizlik Nazirliyinin 7 vəzifəli şəxsi Cinayət Məcəlləsinin 308.2, 309.1 və 302.2-ci maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunub.**

"Lakin son vaxtlar bir sıra dövri mətbuat və elektron informasiya vasitələrində intensiv surətdə yoxlanılmamış və həqiqətə uyğun olmayan, şayiə xarakterli məlumatlar verilir. Həmin şayiələrdə guya Milli Təhlükəsizlik Nazirliyinin yüksək rütbəli və vəzifəli əməkdaşlarının "həbs olunması", habelə onların xidmətlə bağlı olmayan fəaliyyətləri barədə məlumatlar yayılır. O da qeyd olunmalıdır ki, bu cür yalan, böhtan və təhqir xarakterli informasiyaların yayılması yolverilməzdir. Milli Təhlükəsizlik Nazirliyi ölkədə sabitliyin və təhlükəsizliyin etibarlı təmin edilməsi üzrə fəaliyyətini əzmlə davam etdirir, Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin bütün əmr və göstərişləri dərhal və vicdanla yerinə yetirilir", - deyə məlumatda qeyd olunur.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;

# Prezident Bakıda yeni salınan yolların və parkların açılışında iştirak edib

**Prezident İlham Əliyev Bakıda Nəriman Nərimanovun heykəli, Hüseyn Cavid və Parlament prospektləri ətrafında yeni çəkilən yolların, bu ərazidə yenidən qurulan küçə və prospektlərin, yeni salınan parkların açılışında iştirak edib.**



APA-nın məlumatına görə, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov dövlət başçısına görülən işlər barədə məlumat verib.

Bildirilib ki, paytaxtın Həsən Seyidbəyli, Nəriman Nərimanov, Mikayıl Müşfiq, İsmayıl bəy Qutqaşınlı, Mehdi Hüseyn, Kazım Kazımzadə, Məmməd Rahim küçələrində ən yüksək səviyyədə əsaslı təmir və yenidənqurma işləri aparılıb, yeni küçə - Qurban Xəlilov küçəsi və ərazidə yeni parklar salınıb. Əsaslı təmir və yenidənqurma işləri zamanı 100 min kvadratmetrdən artıq asfalt örtüyü döşənib, qranit səki daşı düzülüb, müasir işıq dirəkləri quraşdırılıb. Yeni salınan Qurban Xəlilov küçəsində uzunluğu 610 metr, eni 17 metr olmaqla, ümumi sahəsi 10 min 370 kvadratmetr olan əraziyə asfalt beton örtüyü döşənib. Mikayıl Müşfiq küçəsində yolun hərəkət hissəsi genişləndirilərək yenidən inşa edilib. Yolun Nəriman Nərimanovun heykəlindən Parlament prospektinə qədər, Həsən Seyidbəyli küçəsindən Süleyman Tağızadə küçəsinədək olan hissələrində 35 min kvadratmetr asfalt beton örtüyü əsaslı təmir edilib.

Yeni salınan parklarda isə sakinlərin istirahətini mənalı təşkil etmək üçün hərtərəfli şərait yaradılıb.

Prezident İlham Əliyev yeni salınan Qurban Xəlilov küçəsinin rəmzi açılışını bildirən lenti kəsib.

## Rauf Mirqədirovun cinayət işi məhkəməyə göndərilib

**Həbsdə olan jurnalist Rauf Mirqədirovun barəsində olan cinayət işi üzrə materiallar məhkəməyə göndərilib.**

Vəkil Fuad Ağayevin APA-ya verdiyi məlumata görə, cinayət işi bu gün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

Qeyd edək ki, R. Mirqədirov ötən il aprelin 19-da Türkiyədə saxlanılaraq Azərbaycana deportasiya olunub. O, Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsinə əsasən ittiham olunur. Ötən il aprelin 19-da saxlanılan R. Mirqədirov barəsində 3 ay müddətinə həbs qətimkan tədbiri seçilib. Bundan sonra R. Mirqədirov barəsində seçilmiş həbs-qətimkan tədbirinin müddəti bir neçə dəfə uzadılıb.

## Azərbaycanda valyutadəyişmə məntəqələrinə qadağa

**Azərbaycanda olan valyuta mübadiləsi məntəqələrində həyata keçirilən qeyri-rəsmi pul köçürmələri bu gündən etibarən dayandırılıb. Məlumata görə, bu vaxta qədər Azərbaycandan xaricə və xaricdən Azərbaycana köçürülən pullar müxtəlif şəxslərin havadarlığı ilə bir sıra bankların valyutadəyişmə məntəqələrində həyata keçirilib.**

Hüquqşünas Əkrəm Həsənov "Report"a açıqlamasında qeyri-rəsmi pul köçürmələri sistemini ərəblərin yaratdığını deyib: "Bu sistemi ərəblər yaradıb və adını "Həvalə" qoyublar. Amma hazırda bu pul köçürmə sistemindən çirkli pulların yuyulmasında və terrorçuluğun maliyyələşdirilməsində istifadə olunduğundan qadağan edilib". Qeyd edək ki, Azərbaycan qanunvericiliyi ilə qeyri-rəsmi pul köçürmələri qadağandır.

## Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası yaradıldı

**Azərbaycan prezidenti İlham Əliyev Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının yaradılması haqqında fərman imzalayıb. APA-nın məlumatına görə, dövlət başçısı Azərbaycan Respublikasında dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınması sahəsində vahid, çevik və şəffaf tarif siyasətinin həyata keçirilməsi, sərhədkeçmə prosedurlarının və daşıma proseslərinin asanlaşdırılması, habelə bu sahədə fəaliyyət göstərən dövlət qurumları arasında əlaqələndirmə işlərinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının yaradılmasını qərara alıb.**

Fərmanla Azərbaycan Respublikasının ərazisindən dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınmasında "bir pəncərə" prinsipi tətbiq olunub. Azərbaycan Respublikasının ərazisindən dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınmasında "bir pəncərə" prinsipinin tətbiqi üzrə vahid dövlət orqanının səlahiyyətlərinin həyata keçirilməsi Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasına həvalə edilib.

Nazirlər Kabinetinə Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Prezidentinə təqdim etmək və bu fərmandan irəli gələn digər məsələləri həll etmək tapşırılıb. Müvafiq olaraq İqtisadiyyat və Sənaye Nazirliyinə də müvafiq göstəriş verilib.

Fərmanla müəyyən edilib ki, Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının cari fəaliyyətinin təşkili Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasının Katibliyi tərəfindən həyata keçirilir. Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası Azərbaycan Respublikasında dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınması sahəsində görülən işlər barədə Azərbaycan Prezidentinə ildə iki dəfə məlumat təqdim olunmasını təmin edəcək.

## Azərbaycanda 1 542 nəfər adını və atasının adını dəyişidirib

**Bu ilin ötən dövrü ərzində Azərbaycanın rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən ümumilikdə 1542 ad, soyad və ata adının dəyişdirilməsi faktı qeydə alınıb. Bu barədə "Report"a Ədliyyə Nazirliyinin Vətəndaşlıq vəziyyəti aktlarının reyesteri xidmətindən məlumat verilib.**

Qeyd edilib ki, respublikanın qeydiyyat şöbələri tərəfindən soyadın, adın və ata adının dəyişdirilməsi ilə bağlı təmin olunmayan müraciətlərin statistikası aparılmadığı üçün bu barədə məlumat yoxdur. Qeyd edək ki, son illər Azərbaycanda eyni adların çox qoyulması faktları var. Son beş ildə doğulan oğlan uşaqlarından 16 831-nə Yusif, 11 496 nəfərinə Əli, 11 173-nə Hüseyn, 7307-nə Məhəmməd, 7 127 nəfərinə isə Murad adı verilib. Son beş ildə 7080 oğlan uşağına Ömər adı verilib.

İlk beşliyi tutan beş adın hər biri ərəb mənşəlidir.



## Mədət Quliyevə general-leytenant ali hərbi rütbəsi verildi

**Prezident İlham Əliyev Mədət Quliyevə general-leytenant ali hərbi rütbəsinin verilməsi haqda sərəncam imzalayıb. "Report"un xəbərinə görə, sərəncamla Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin birinci müavini Mədət Qəzənfər oğlu Quliyevə general-leytenant ali hərbi rütbəsi verilib.**

Qeyd edək ki, prezident İlham Əliyevin oktyabrın 20-də imzaladığı sərəncamla Mədət Quliyev Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin birinci müavini təyin edilib.

Xatırladaq ki, Azərbaycan Respublikası Prezidentinin 30.06.2005-ci il tarixli 866 nömrəli sərəncamı ilə ona polis general-mayoru rütbəsi verilib.

## Prezident QHT Şurasının səlahiyyətlərini artırdı

**Prezident İlham Əliyev dövlət orqanları tərəfindən QHT-lərə qrant verilməsi qaydaları barədə fərman imzalayıb. Fərmana görə, dövlət qurumları qrantlar verərkən Prezident yanında QHT Şurası ilə razılaşdırmalıdırlar.**

**Sərəncamda deyilir:**

- Dövlət orqanları tərəfindən qeyri-hökumət təşkilatlarına qrant verilməsinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilə razılaşdırılması Qaydası" təsdiq edilsin.

Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
**Telefon: (012) 434 93 01, 434 01 33**



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**Milli Təhlükəsizlik Nazirliyində (MTN) həyata keçirilən xüsusi əməliyyatla bağlı hüquq-mühafizə orqanları müfəssəl məlumat verməyə tələsmirlər. Baş Prokurorluğun 7 MTN-çinin həbsi ilə bağlı yaydığı məlumatda adlar, tutulanların vəzifələri haqda bilgi yoxdur. Bilinən odur ki, tutulanlar Cinayət Məcəlləsinin 3 maddəsi - 308.2, 309.1 və 302.2-ci maddələri ilə təqsirli bilinib barələrində 3 aylıq həbs-qətimkan tədbiri seçilib. Həbs edilənlər Bakı İstintaq Təcridxanasına köçürülərək xüsusi nəzarət altında saxlanılırlar.**

# Ölkəni silkələyən generalitet həbsləri - dövlət çevrilişinə cəhd, yoxsa...

## MTN-nin tutulan zabitlərinin adları açıqlandı; Eldar Mahmudov dövlət içində dövlət yaradıbmış; ittiham olunanların cinayət işində seçkilərə müdaxilə ittihamı nəyə işarədi?

### Tutulan MTN-çilərə verilən ittihama diqqət - seçkilərin nəticələrinə təsir etmə...

Bu maddələrin ikisi Cinayət Məcəlləsinin 33-cü - Korrupsiya cinayətləri və dövlət hakimiyyəti, dövlət qulluğu mənafeyi, yerliözünüidarə orqanlarında, kommersiya və ya qeyri-kommersiya təşkilatlarında qulluq mənafeyi əleyhinə olan cinayətlər fəslinə daxildir.

308.2 - vəzifə səlahiyyətlərindən istifadə etməklə seçkinin nəticələrinə təsir etmə, 309.1 - vəzifə səlahiyyətlərinin aşma adlanır. 302-ci maddə isə əməliyyat-axtarış fəaliyyəti haqda qanunvericiliyi pozma ilə bağlıdır.

Həbs edilənlərə elan edilmiş 302.2 maddəsi informasiyanın gizli yolla götürülməsi üçün nəzərdə tutulan xüsusi texniki vasitələrdən istifadə edilməklə törədildikdə nəzərdə tutulan cəza ilə bağlıdır. Bu zaman 1000 manatdan 2 min manatadək miqdarda cərimə və ya 3 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə 2 ildən 5 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Digər maddələrin sanksiyasında 3 ildən 8 ilə qədər cəza nəzərdə tutulur. Belə görünür ki, "MTN işi" üzrə tutulanlar təkcə sahibkarları incitməkdə deyil, seçkilərin nəticəsinə təsir etməkdə suçlu bilinirlər. Hansı seçkidən söhbət gedir? Bu il noyabrın 1-də keçiriləcək parlament seçkilərindən?

İstintaqçıların əlində bunu təsdiq edən məlumatlar olmasaydı, onda 308.2-ci - vəzifə səlahiyyətlərindən istifadə etməklə seçkinin nəticələrinə təsiretmə - maddəsini iş üzrə səsləndirilən maddələr sırasında görməyəcəkdik. Deməli, ortada konkret məlumat, fakt və sübutlar var və bu sübutlar MTN-də xüsusi əməliyyatın baş tutmasını şərtləndirib. Böyük ehtimalla söhbət noyabrın 1-də baş tutacaq parlament seçkilərindən gedib...

### "MTN işi" üzrə həbs olunan şəxslər icraçılardır

İstintaqa yaxın olan mənbə "Yeni Müsavat"a deyib ki, hazırda "MTN işi" üzrə həbs olunan şəxslər icraçılar olub. Bu baxımdan onların həbsi kələfin ucunun istintaqın əlinə keçməsidir. Tutulanlardan alınacaq ifadələr seçkilərlə bağlı, sahibkarların incidilməsi ilə bağlı tapşırıqların konkret kimlərdən gəldiyini ortaya qoyacaq. Bundan sonra həbslərin yeni dalğası olacaq.

### Tutulanlar kimlərdir?

**Qaynağımız həbsə alınan bəzi MTN-çilərin adlarını da açıqlayıb:** "Əməliyyat zamanı MTN-in Monitorinq Mərkəzinin (telefonların dinlənilməsi idarəsinin) rəisi general-mayor Teymur Quliyev, Antiterror Mərkəzinin rəis müavini İlqar Əliyev, Əməliyyat Texniki İdarənin rəisi Natəvan Mürvətova və Füzuli Əliyev, Fərhad Atayev saxlanılıblar".

### MTN-də qızıl, brilyant alverçilərinin qənimi kim olub?

**Qaynağımız deyib ki, Füzuli Əliyev qızıl, brilyant alverçilərinin qənimi olub və bu monopoliyaya o nəzarət edib:** "Qızıl, brilyant alverçiləri MTN-ə çağırılaraq onlara ölkəyə gətirdikləri brilyantın hər karatına, qızılın 100 qramına görə 12 faizlik haqq qoyulub".

### Həbslər seçkilərlə əlaqəlidir?

**Qaynağımız xüsusilə qeyd edib ki, həbslər böyük hesabla seçkilərlə əlaqəlidir:** "İstədikləri, özlərinin şəxsi maraqları çərçivəsində olan namizədləri parlamentə keçirmək üçün digərlərinin şantaj olunması məsələsi də var. Bundan başqa, kadrların işə götürülməsində də çox böyük qüsurlar olub".

### Əsas xəzinədar, Bakıdakı telefonların nazirin qardaşı kürəkəninin vasitəsilə dinlənilməsi və daha nələr...

**Qaynağımız sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudova yaxın şəxslərin adının mətbuatda hallanmamasına da diqqət çəkdi:** "Əli Şəfiyevin adı çəkilmir, nazirin yaxın qohumudur. Kadrlar İdarəsinin rəisi Əlimusa Əliyevin adı çəkilmir. Bu adamlar birbaşa Eldar Mahmudovun yaxın çevrəsidirlər. Onun əsas xəzinədarlarından biri əmisi oğlu Vüqar Mahmudovdur. Eldar Mahmudov milli təhlükəsizlik naziri təyin olunandan sonra Vüqar Mahmudovun bacısının həyat yoldaşı Beytulla Hüseynovu Bakı Telefon Rabitəsi İstehsalat Birliyinə rəhbər vəzifəyə gətirib. Bu gün (dünən-red.) onu işdən çıxarıblar. BTRİB postu Bakı şəhərində olduqca strateji vəzifələrdən sayılır. Onu ora qoyub Bakıdakı idarə, müəssisə, şəxsi mənzillər, villalar və telefon olan hər yeri rahatca dinləyə bilərdilər. MTN-də bir-birinə yaxın qohum olan şəxslərin işləməsi açıq-aydın korrupsiyadır, vəzifə səlahiyyətlərinin aşılmasıdır".



### "MTN işi" üzrə 20-25 nəfərin tutulacağı gözlənilir...

**Milli Təhlükəsizlik Nazirliyinin istefada olan polkovnik-leytenantı İlham İsmayıl musavat.com-a deyib ki, MTN-də həyata keçirilən əməliyyatla bağlı yayılan rəsmi məlumat yarımçıqdır. Ona görə də mətbuat nümayəndələri ən müxtəlif versiyaları mətbuat səhifələrinə çıxarırlar:** "Adların açıqlanmaması istintaq sirri ilə bağlı deyil. Həmin adamların adları gec-tez məlum olacaq. Bu gün onların adı məlum olsa, bu adların çəkilməsinin istintaqa nə dərəcə təsiri olacaq? Və ya onların ailə üzvləri bilir ki, bu adam evə gəlmir. Deyək ki, onlar məlumat alsalar hər hansı bir təsirləri ola bilər. Onlar da bu adamların həbs olunduğunu bilirlər. Çünki bu adamlar evə getmirsə, deməli, həbs olunublar. Bunu məxfi saxlamaqla nəyə nail olmaq istəyirlər, bilinmir. Sanki yarımçıq atılmış güllədir. Rəsmi deyilməlidir ki, dəqiq bilinsin ki, tutulanlar kimlərdir. Orada işləyənlər, vaxtilə işləmiş şəxslər təxminən bilir ki, tutulanlar kimlərdir, tutulacaq şəxslər də orada çoxdur. 20-25 nəfərin tutulacağı gözlənilir. Nazirliyin özündə gəzən fikirlər belə deməyə əsas verir. MTN-də baş verən bu əməllərin mövcudluğu haqda rəsmi, qeyri-rəsmi, dolayısı yolla belə fikir formalaşıb ki, bu qurum professional funksiyasını yerinə yetirmir, daha çox cəmiyyətdə biznesmenlərin, iş adamlarının qəniminə çevrilib. Əgər 11 ildən sonra bu əməliyyat baş tutursa, bu da qənimətdir".

### MTN heç bir halda seçkiyə müdaxilə edə bilməz

**İ.İsmayıla görə, MTN heç bir halda seçkiyə müdaxilə edə bilməz:** "Belə görünür ki, himayələrində olan adamlar ki var, onların deputat seçilməsi üçün çox çalışıblar. Ola bilər ki, bu məsələdə fikirləri hakim partiya ilə üst-üstə düşməyib. Bu, bütün ölkə üzrə ola bilməz, bir və bir neçə dairədən söhbət gedir. Zamanında məlum olub, amma tədbir görülməyib və kontr-material kimi indi üzə çıxıb. MTN siyasi partiya deyil ki, onun öz deputatları olsun. Ümumiyyətlə, bu işə qarışmamalıdırlar".

### Seçkinin nəticələrinə təsir göstərmək məsələsi...

**İ.İsmayıl deyib ki, MTN-də baş verənlərdən rəhbərliyin xəbərsiz olmasını mümkünsüz sayır:** "Seçkinin nəticələrinə təsir göstərmək məsələsindən xəbərsiz olmaları mümkün deyildi. Hazırda istifadə olunan klassik metodlardan biri də budur ki, seçiləcək namizədin adı icra başçısına deyilir, ona dəstək vermək tapşırılır. O da soruşanda deyirlər ki, bu namizədin dəstəklənməsi rəhbərliyin tapşırığıdır. O da bunu Prezident Administrasiyası ilə dəqiqləşdirir. Hazırda məlum deyil ki, bunlar istədiyi şəxsi həqiqətən seçdirə biliblər, ya yox. Belə görünür ki, müdaxilə fakt olaraq yadda saxlanıb. Orada nə baş verirsə, ondan mütləq şəkildə rəhbərliyin xəbəri olub. Hətta orada şantaj da var, MTN-in Texniki İdarəsinə tapşırıq var. Texniki İdarə heç vaxt özbaşına kiminsə telefon danışığına qulaq asa bilməz. Belə bir hal olsa, Texniki İdarənin rəhbərliyindən tutmuş qanunsuz dinləməni həyata keçirən əməkdaş cəzalandırılmalıdır. Kiminsə telefon danışığına qulaq asılırsa, 24 saat ərzində məhkəmənin qərarı olmalıdır. Qulaq asıblarsa, faktiki səlahiyyət həddini aşıb cinayət törədiblər".

### Dinləmə nazirin və onun müavininin icazəsi ilə...

**İ.İsmayıl dinləmə ilə bağlı qanunun tələb etdiyi şərtləri də açıqlayıb:** "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun tələbinə görə, dinlənilmə nazirin və onun müavininin yazılı, əsaslandırılmış göstərişinə əsasən, məhkəmənin qərarı ilə təsdiqlənəndən sonra həyata keçirilməlidir. Yeni təyin olunacaq nazir bu məsələlərə xüsusi diqqət etməlidir. Ötən 11 il ərzində MTN-də baş verənləri aradan qaldırmaq üçün həmin illərin yarısı qədər vaxt lazımdır. Orada kadr islahatı aparılmalıdır. Belə bir islahat aparmadan MTN-in üzərinə düşən vəzifələrin yerinə yetirilməsi mümkün görünmür. Rüşvət alınıb işə götürülən əməkdaşlarla həmin vəzifələrin yerinə yetirilməsi mümkünsüzdür. Onların əməliyyat qabiliyyəti böyük sual altındadır. Yeni təyin ediləcək nazirin qarşısına qoyulacaq məqsədlər olduqca aydın və kəskin olmalıdır. Həmin adam xalqın etimadını qazanmalıdır. Xalq görməlidir ki, bayaqdan burnunu hara gəldi soxan adamı oradan götürdülər, yerinə gələn isə özünü professional əməliyyatçı kimi aparır, haqq alan kimi yox!"

### Əgər şəxs terrorla məşğuldursa, onu MTN-ə niyə çağırırsan?

**İ.İsmayıl sahibkarların MTN-in Antiterror Mərkəzinə(ATM) çağırılmasının heç bir əsasının olmadığını da deyib:** "Sahibkar ATM-ə aparılmışdısa, oradan çıxıb birbaşa məhkəməyə müraciət etməli idi. Amma təəssüf ki, məhkəmələr müstəqil deyil.

Ada fikir verin - Antiterror Mərkəzi. Deməli, terrorçularla məşğul olmalıdır. Əgər şəxs terrorla məşğuldursa, onu MTN-ə niyə çağırırsan? Onu gizli şəkildə dinləyib izləməlisən. Sən sahibkarı çağırırsansa, deməli, sənin məqsədin pul almaqdır. Bu gün mətbuatda yer alan məlumatlar da təsdiqləyir ki, ATM terrorizmə qarşı mübarizə aparmaqdansa, dünyanı bürüyən şərlə mübarizə aparmaqdansa, sahibkarları soymaqla məşğul olub".

**İ.İsmayıl "MTN işi" üzrə tutulan şəxslərin dairəsinin genişlənəcəyinə şübhə etmədiyini söyləyib:** "Xalq və cəmiyyət üçün belə görünür ki, həmin adamları həbsə almaq üçün kifayət qədər əsaslar var. Amma istintaqçılar saxlanılan şəxsləri bir-bir dindirməli, material toplamalıdır. Saxlanılan şəxslərin 1 saatın içində dindirilməsi mümkün deyil. Proses aylarla çəkəcək və nəticəsi də olacaq".

**İ.İsmayıl "MTN-in bəzi yüksək çinli vəzifəlilərinin dini qruplaşmalara rüşvət müqabilində himayədarlıq etməsi" iddiasına da münasibət bildirib. Deyib ki, bu illər ərzində radikal dindarlara qarşı müəyyən mənada əməliyyat şəraitinə nəzarət olunub:** "Amma ola bilər ki, islamçılardan radikallığa daxil olmayanları olub, onları şantaj ediblər, necə ki, sahibkarı ediblər".

Qeyd edək ki, bəzi ekspertlər MTN ətrafında baş verən son prosesləri dövlət çevrilişinə cəhd kimi qiymətləndirirlər. Onların məntiqinə görə, həbs olunanların sayı, indiyədək tutduqları vəzifə bunu deməyə əsas verir. Həmçinin nazir Eldar Mahmudovun vəzifədən uzaqlaşdırılması, müavinlərinin də eyni aqibətlə üzləşməsi MTN-in hansısa təhlükəli, qorxunc bir ssenari hazırlığı içində olduğu qənaətini yaradır.

❑ **E.MƏMMƏDƏLİYEV**



# Xərac darğalarının ifşası

Xalid KAZIMLI

**Bir vaxtlar Türkiyədə, daha sonra ölkəmizdə çox populyar olan bir serial vardı: "Dəli ürək". Ona "Yusif Mirioğlunun kinosu" da deyirdilər.**

Bax, o serialda adına "Birim" deyilən bir dövlət orqanının Turqay Atacan adlı tamahkar bir rəhbəri vardı, iş adamlarını girov götürdür, külli miqdarda xərac alıb buraxırdı.

Bu, heç də, dəbdə olan ifadə ilə desək, təxəyyül məhsulu (hayal ürünü) deyildi, Türkiyənin reallığıydı. Sonradan məlum oldu ki, bu xüsusda Türkiyədə daha acı bir mənzərə var.

Qonşu Rusiyada da hüquq-mühafizə orqanlarının iş adamlarını daimi təzyiq altında saxladığı, boyunlarına iri məbləğli xərac qoymaları və almaları çoxdan bəllidir.

Eyni durum ölkəmizdə də var.

İndi deyirlər, vaxtında mətbuat bu barədə yazmayıb.

Yanlışdır. Məgər Zülfüqarlı qardaşlarının, digər sahibkarların başına açılan oyunlar barədə az yazılırdımı? Kifayət qədər yazılırdı.

Düzdür, bəzən iş adamlarına təzyiq göstərən, onları soyan hüquq-mühafizə orqanının adını konkretləşdirərək yazmaq olmurdu, amma onların yaratdığı problemlər barədə yazılırdı və bu işlərin arxasında duranların silueti görünürdü.

Zamanında MTN-də jurnalist Pərviz Həşimlinin başına gətirilənlərdən çox yazılmışdı. Qurumun generalı Akif Çovdarovdan da az yazılmırdı. Bu adamın jurnalist Aqil Xəlilin başına gətirdiyi oyunlar, Binəqədi rayonundakı zeytunluğu kəsdirib restoran tikdirməsi barədə səhifə-səhifə, silsilə yazılar getdi.

O zaman o, polkovnik idi, media yazmağa başlayandan sonra Çovdarovun çiyninə general poqonu taxdılar.

Belə olandan sonra, əlbəttə ki, o və onun kompanyonları iş adamlarını, 3-5 manat pul qazananları soyacaqdılar. Bir halda ki, belləri siyasi hakimiyyət sarıdan bağlıdır və hər kəsə onlar nəzarət edir, daha kimdən çəkinsinlər.

Bax, bu cür cəzasızlıq mühiti vadar edirdi ki, fitrətcə də tamahkar olan insanlar vəzifə səlahiyyətlərindən sui-istifadə edərək şəxsi sərvətlərini artırsınlar. Demək olar ki, imkanı çatan hər kəsin dövlət büdcəsini taladığı, xalqın dərisini soyduğu bir vaxtda MTN generalları kristal və məsum ola bilməzdilər.

Sadəcə, hiss olunur ki, onlar əndazəni aşıblar, özlərinə çəkilmiş cızıqdan çıxıblar və başqalarının qırmızı xəttini keçiblər. Daha çox pul qazanmaq, daha geniş nüfuz dairəsinə sahiblənmək, daha çox hakimiyyət əldə etmək ehtirası bu adamları yandırıb.

İndi daha bir trend var: dolayısı ilə soyğunçu generalların təqsiratını azaltmaq üçün xərac verməyə məcbur edilən vəzifəlilərin, iş adamlarının o qədər pulu (tutaq ki, 1 milyonu) hardan alıb verdiklərinə dair sual səsləndirilir.

Bu, "oğrudan oğruya halaldır" atalar məsələni yada salmaq və xərac verməyə məcbur edilənlərin də mələk olmadığı, bu qədər pulu hardansa oğurladıqlarına işarə etməkdir. Əgər onlar da oğrudursa, demək, generallar düz ediblər - xalqa sırınan məntiqi nəticə budur.

Amma ortada təfərrüatlar var. Bəlli bir faktdır ki, girov götürülərək MTN-in zirzəmisinə salınan iş adamlarının özlərində o qədər pul olmasa da, yaxın qohumları, iş ortaqları, dostları toplaşıb köməkləşir və darda olanları qurtarırlar. Banklardan, sələmçilərdən iri məbləğdə borc götürüb girovu azad etdirmək vaqiələri də olub. Yüksək məbləğdə borcun altına girən, onu qaytara bilməyərək intihar edən, yaxud ölkədən qaçmağa məcbur olan iş adamları da olub.

Bütün bunlar necə unudula, gözardı edilə bilər?

Hətta müvafiq istiqamətdə istintaq dərinləşsə, həbsə alınanların, eləcə də ev dustağı edilənlərin tam ifşasına qərar verilsə, ortaya elə dəhşətli faktlar çıxa bilər ki, camaatın əli üzündə qalar. Məsələn, MTN-çilərin "Topaz" məntəqələrinə aylıq 15 min manat xərac qoyduqlarını danışanlar var.

Bu detalların kiçik bir qismi xammal şəklində bir çoxlarına məlumdur, dildə-ağızda gəzir, xeyirdə-şərdə səsləndirilir, amma onları prokurorluq orqanları tərəfindən ittiham aktına salınmamış yazmaq, ictimailəşdirmək mümkün deyil.

Bir də MTN-in "əmlak dağıdanlarla mübarizə qrupu" ilə paralel olaraq eyni işi görən daha bir idarənin adı çəkilir. Onlara dair də əfsanələr dolaşır, orda-burda danışılır. Gün gələr, o xərac darğalarını da ortalığa çəkərlər.

Əslində bu, "Hacı Məmmədovun işi" qədər qalmaqallı və ağır cinayət işidir.

**Qeydiyyata alınan 1246 deputatlığa namizədin 477 nəfəri namizədliyini geri götürüb. Beləliklə, Milli Məclisə noyabrın 1-nə təyin edilmiş parlament seçkilərində 769 deputatlığa namizəd mübarizə aparacaq. Deputatlığa namizədlərin siyahısı Mərkəzi Seçki Komissiyasının saytında verilib.**

# 477 nəfər namizədlikdən imtina etdi



## Deputatlığa iddialıların sayı 769-a endi

Qeyd edək ki, Mərkəzi Seçki Komissiyasının qərarı ilə müvafiq poliqrafiya müəssisəsi tərəfindən seçki bülletenlərinin hazırlanması səsvermə gününə ən azı 10 gün qalmış başa çatmalıdır. Milli Məclisə seçkilərlə əlaqədar bu proses oktyabrın 22-də başa çatır.

Namizədliyini geri götürənlər sırasına dünən tanınmış vəkil Aslan İsmayılov da qoşulub. A.İsmayılov 20 saylı Nərimanov ikinci seçki dairəsində seçki mübarizəsini dünən dayandıraraq namizədlikdən imtina etdiyini xüsusi videomüraciətlə bildirib. Sosial şəbəkədə yaydığı videomüraciətində A.İsmayılov seçkilərin şəffaf keçiriləcəyinə ciddi şübhə ilə yanaşdığını, televiziyada efir vaxtı ayrılmamasını əsas gətirərək, bu marafonda iştirakdan imtina etdiyini söyləyib.

20 saylı Nərimanov ikinci seçki dairəsində əsas namizədlərdən biri hazırda Milli Məclisin deputatı olan Adil Əliyevdir. Hakim Yeni Azərbaycan Partiyası bu dairədən İbrahim Əsədovun namizədliyini irəli sürüb. O, Nərimanov rayon bələdiyyəsində aparıcı mütəxəssis işləyir.

Deputatlığa namizədlərin və partiyaların seçki təbliğatı isə davam edir.

21 saylı Nəsimi seçki dairəsindən "AĞ blok"un deputatlığa namizədi Tural Abbaslı təbliğat-təşviqat kampaniyasını seçicilərin qapısına şəxsən gətməklə aparır. Bu barədə "AĞ blok"un seçki qərargahının rəhbəri Əhəd Məmmədli məlumat verib. Onun dediyinə görə, Tural Abbaslı və səlahiyyətli nümayəndələri evbəev gedərək seçicilərlə şəxsən təmasda olurlar. Eyni zamanda Tural Abbaslıya səs verməyə çağırışı edən plakatlar, təqvimlər seçicilər arasında paylanır.

Müsavat Partiyası isə 25 oktyabra təyin etdiyi seçicilərlə görüş mitinqi ilə bağlı müşavirə keçirib.

**Müşavirədə çıxış edən Müsavat Partiyasının başqanı Arif Hacılı bildirib ki, bu, seçicilərlə görüş-mitinqidir:** "Oktyabrın 25-də keçiriləcək mitinq 15 saylı Yasamal seçki dairəsindən deputatlığa namizəd İsa Qəmbərin seçicilərlə görüşüdür. Bunu həm də bütövlükdə Müsavat Partiyasının seçicilərlə əsas təmas görüşü kimi nəzərdə tuturuq. Həmin görüşdə İsa bəy öz seçiciləri ilə görüşəcək, eyni zamanda deputatlığa digər namizədlər də orda iştirak edəcəklər. Müsavat Partiyasının platformasını, seçkilərlə bağlı mövqeyini ictimaiyyətə təqdim edəcəyik. Bir daha təkrar edirəm, bu, seçki kampaniyası kontekstində olan bir görüşdür".

**Müsavat Partiyasının keçmiş başqanı, Milli Strateji Düşüncə Mərkəzinin sədri İsa Qəmbər seçkidə iştirak etməyi iki qat qəhrəmanlıq adlandırıb:** "Belə bir dönəmdə seçkidə iştirak etmək iki qat qəhrəmanlıq, iki qat fədakarlıqdır".

**İsa Qəmbər müxalifət qüvvələrinin seçkidə iştirak etməməsinin hakimiyyətin əsas istəyi olduğunu söyləyib:** "Hakimiyyət istəyir ki, real müxalifət qüvvələri seçkidə iştirak etməsin. Əgər hər hansı bir təşkilat, yaxud onun lideri ölkənin aparıcı təşkilatı olduğunu iddia edirsə, o zaman durumu dəyişmək üçün cəmiyyətdən bir addım öndə olmalıdır. Əgər cəmiyyət seçkiyə inanmırsa, bu inamı yaratmaq birbaşa müxalifətin üzərinə düşür".

Xatırladaq ki, Bakı Şəhər İcra Hakimiyyəti Müsavat Partiyasının oktyabrın 25-də Yasamal Rayon İdman-Sağlamlıq Kompleksinin stadionunda (keçmiş "Məhsul" stadionu) seçicilərlə görüş mitinqinə razılıq verib. Sözügedən meydan İsa Qəmbərin deputatlığa namizəd olduğu 15 saylı Yasamal seçki dairəsinin ərazisinə düşür və namizədlərin açıq havada təşviqat görüşləri üçün ayrılıb.

❑ E.SEYİDAĞA

# Partiyalar seçim qarşısında - Əli Kərimli, yoxsa Razi Nurullayev...

## Müsavatın ardınca digər partiyalar da AXCP olaraq kimi tanıdıqlarını açıqladılar

**Müsavat Partiyasının başqanı Arif Hacılı bildirib ki, AXCP adında bir təşkilat tanıyır və bu, Əli Kərimlinin AXCP-sidir. Razi Nurullayevin yaratdığı isə tamamilə başqa təşkilatdır.**



Arif Hacılı bu barədə facebook sosial şəbəkəsində status yazıb və qeyd edib ki, hətta Ədliyyə Nazirliyinin belə qəbul edəcəyi hər hansı qərar Müsavat Partiyasının mövqeyinə təsir etməyəcək.

Digər müxalifət partiyalarının AXCP olaraq tərəflərdən hansını tanıdıqlarını araşdırdıq.

**Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn** bildirdi ki, Azərbaycanda hazırda dövlət qeydiyyatından keçmiş bir AXCP var və bu partiyanı da AXCP hesab edir.

**KXCP sədri Mirmahmud Mirəlioğlunun isə cavabı belə oldu:** "Mən əhəmiyyətsiz şeyə münasibət bildirmirəm".

**Ümid Partiyasının sədri İqbal Ağazadə bildirdi ki, hazırda dövlət qeydiyyatından keçmiş AXCP var və bu partiyaya sədrliyi Əli Kərimli edir:** "Biz hüquqa hörmət etməyin tərəfdarıyıq. Hesab edirik ki, AXCP Əli Kərimlinin rəhbərlik etdiyi partiyadır. AXCP dövlət qeydiyyatından keçmiş partiyadır. Həm də uzun illərdir AXCP kimi fəaliyyət göstərir, tanınır. Mən onun tərəfində deyiləm ki, ayrılma baş versin və ayrılanlar o partiyanın adından istifadə etsin. Ayrılanlar ayrıla bilər, bu da onların hüququdur, lakin yeni partiya adı ilə ortaya çıxa bilərlər".

**ADP sədri Sərdar Cəlaloğlu isə bildirdi ki, Razi Nurullayev onu şəxsən qurultaya dəvət edibmiş, lakin getməyib:** "Getməməyimin səbəbini də Razi bəyə belə ifadə elədim ki, mənim Əli Kərimliyə qarşı neqativ münasibətim var, mənim qurultaya gəlməyim tərəf tutmaq mənasını verə bilər. Razi bəyə təşəkkür bildirdim və qurultaya getmədim. Əslinə baxsan hüquqi baxımdan Razi Nurullayev və tərəfdarları yeni adda bir partiyanın təsis qurultayını keçirsəydilər daha düzgün olardı. AXCP-ni tərk eləmiş insanların yığışıb Ədliyyə Nazirliyindən qeydiyyatdan keçmiş bir partiyanın adından qərar çıxarması, qurultay keçirməsi əslində «Siyasi partiyalar haqqında» Qanuna ziddir. Qanunçuluq nöqteyi-nəzərindən indiki halda AXCP kimi Əli Kərimlinin sədri olduğu təşkilatdır. Razi Nurullayevin də partiya yaratmaq hüququ var. Ancaq qanunda göstərilir ki, eyni adda ikinci partiyanın olması yasaqdır. Bu baxımdan Razi bəy təşkilatına başqa ad qoya bilər. Məsələn, "Əsl Azərbaycan Xalq Cəbhəsi Partiyası" adı qoya bilərdi. Amma "AXCP" adı qoyulmasına qanun imkan vermir. Çünki dövlət qeydiyyatından keçmiş və dövlət qeydiyyatında ola-ola qurultayını keçirmiş AXCP adında partiya var. Bizim də münasibətimiz qanuna əsaslanır. Ədliyyə Nazirliyi də Əli Kərimlinin sədrlik etdiyi AXCP-nin əvəzinə başqa bir təşkilatı AXCP adı ilə qeydiyyatdan keçirə bilməz. Ona görə də ən düzgün o olardı ki, Razi Nurullayev qurultayını yeni adda bir partiyanın təsis qurultayı olaraq keçirəydi. Bu zaman onu yeni partiya kimi qeydiyyata alardılar".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 234 (6262) 22 oktyabr 2015

**Son günlərdə MTN-də yaşanan məlum hadisələr "Bizim Yol" qəzetinin əməkdaşı Pərviz Həşimlinin azadlığa çıxması üçün yaşıl işıq yandıra bilər. Belə ki, jurnalistin iki il öncəki həbsində birbaşa adı hallanan Eldar Mahmudovun vəzifəsindən uzaqlaşdırılmasından və P.Həşimlinin həbsi əməliyyatını həyata keçirən şəxslərin bir qisminin saxlanılmasından sonra bu qənaətə gəlmək olar.**



# Pərviz Həşimli azadlığa çıxa bilərmi?

## Vəkil Bəhruz Bayramov: "Ona MTN-də işgəncə verib saxta ifadəyə qol çəkdirmək istəyiblər"

**P.Həşimlinin vəkili Bəhruz Bayramov** "Yeni Müsavat"a açıqlamasında iki ildən sonra susqunluğu pozaraq, jurnalistin həbsi ilə bağlı heç yerdə indiyə qədər deyilməyən şok faktlar açıqladı: "Pərviz Həşimlinin həbsi qeyri-qanuni idi. İnsan ləyaqətinə yaraşmayan hərəkət etdilər. Təsəvvür edin ki, Pərviz bəy həbs olunur, onun evinə maskalı şəxslər göndərilir. Onlar da Pərvizin həyat yoldaşı və 5 yaşlı uşağı olan evə hücum edirlər. Həmin hadisələrin stressindən uşaq uzun müddət ayılmadı. Mətbuatda bu barədə sözümü dedim. Pərvizin ailəsi Biləcəridəki evi tərk edərək, Yasamala birotaqlı evə köçdü. Hətta orada da rahat buraxmadılar. Maskalı şəxslər yenə də gəlib qapını döymüşdülər. Jurnalistlərin iştirakı ilə bu məsələ təsdiqini tapdı. Bunlar yolverilməz idi. Pərviz həbs edilərkən, Bakı Ağır Cinayətlər Məhkəməsində MTN-in keçmiş müstəntiqi Novruz Kərimova işin həvalə edilməsi prosesin davamı idi. İşin qərəzliliyi bir daha sübut olundu. Hesab edirəm ki, onların törətdiyi cinayətlər öz təsdiqini tapıb. Onların həbs olunması nə qədər qanunsuz iş görmələrini təsdiq edir. Söz məhkəmənindir. Pərviz Həşimlinin oktyabrın 27-də Ali Məhkəmədə prosesi olacaq. Məhkəmənin qərarı ilə o, bəraət almalıdır. Həbsdə qalmasına heç bir əsas görmürəm".

**Vəkil jurnalisti həbs edirənlər barədə aidiyyəti orqanlara müraciətlər ünvanlayacaqlarını dedi:** "Müraciət üçün məhkəmə qərarı olmalıdır. Məhkəmənin ədalətli olacağına əminəm. Bəraət qərarı olmalıdır ki, biz onların qanunsuz əməlləri barədə digər hüquq-mühafizə orqanlarına müraciət edək".

**B.Bayramov "Bizim Yol"un əməkdaşının həbsində E.Mahmudovun adının keçməsinə münasibət bildirdi:** "Dəqiq deyə bilmərəm ki, bu həbs birbaşa Eldar Mahmudovun tapşırığı əsasında həyata keçirilib. Amma qeyd edim ki, həbsdə MTN-in Antiterror Mərkəzinin rəisi Elçin Əliyev və onun müavini İlqar Əliyevin birbaşa əli var idi. MTN-in Gəncə şəhər şöbəsinin rəis müavini Elşən tərəfindən həbsin ssenarisi hazırlanmışdı. Pərvizin üzünə duran Təvəkkül adlı şəxs oradan tapılmışdı. Pərvizə verilən ağır işgəncələrə baxmayaraq, kimlərə qarşısa yalandan şər atılan kağıza qol çəkməkdən imtina etdi. Məhz buna görə də MTN-in Gəncə şöbəsinin rəis müavini Elşəni işdən çıxardılar. Çünki istədiklərini həyata keçirə bilməmişdi. Bu məsələlər məhkəmə prosesində aşkarlandı. Pərvizin özü indi dediklərimi məhkəmədə deyib. Həbsinin səbəblərini olduğu kimi açıqlayıb".

**Vəkil hüquqlarını müdafiə etdiyi şəxsin MTN-in sabiq müavini, Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin rəis müavini olan general-mayor Əli Nağıyev və "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanova şər atmaq üçün həbs olunması barədə sensasion faktlar açıqladı:** "Pərvizə 1 milyon manat pul təklif etmişdilər. İstədikləri kağıza qol çəkməyin müqabilində. Onların Əli Nağıyev və Cavid Qurbanovla düşmənçilikləri var idi. Onlara qısqanclıqla yanaşırdılar. Hər iki məmuru "vurmaq" üçün Pərviz Həşimlidən istifadə etmək istədilər. Amma Pərviz bütün işgəncələrə dözdü və onların istədiklərini etmədi. Cavid Qurbanovla Pərviz Həşimlinin münasibəti parlamentdən yaranmışdı. Pərviz parlament müxbiri idi. Başqa deputatlarla da yaxınlığı, salamı vardı. Əli Nağıyevlə isə Həcc ziyarəti zamanı tanış olmuşdular. Bundan kənar o məmurlarla heç bir əlaqələri, münasibətləri olmayıb Pərvizin.

**B.Bayramov P.Həşimlinin həbs olunduğu ilk günlərdə yaşadıqları ilə bağlı maraqlı fikirlər səsləndirdi:** "Pərviz deyirdi ki, həbs olunanda İlqar Əliyevin otağında ona işgəncə verə-verə Əli Nağıyevin və başqalarının əleyhinə olan saxta ifadəyə qol çəkdirmək istəyiblər. Hər 5 dəqiqədən bir İlqar Əliyev Hilal Əsədova məlumat verirmiş. Pərviz qol çəksəydi, müəyyən şəxslər həbs olunmalı idi. Xüsusi təyinatlılar hazır vəziyyətdə dayanıblar. Bu proses səhərə qədər davam edib. Görüblər ki, mümkün deyil, ondan sonra xüsusi təyinatlıları sərbəst buraxıblar. Bütün bunları Pərviz mənə dedi. Mənə onu da dedi ki, həmin saxta ifadəyə qol çəkməsi üçün İlqar Əliyev onu gah döyürmüş, gah da şirnikləndirici təkliflər edirmiş. Məsələn, deyirmiş ki, həmin məmurlar haqda yalandan ifadə versə, ona 1 milyon pul verəcəklər, həmçinin geniş imkanlar yaradacaqlar".

Qeyd edək ki, Pərviz Həşimli 2013-cü il sentyabrın 17-də Milli Təhlükəsizlik Nazirliyinin keçirdiyi əməliyyatla saxlanılıb. Ona qarşı odlu silahın və döyüş sursatının qaçaqmalçılığı, odlu silah saxlama maddələri ilə ittiham irəli sürülüb. Bakı Ağır Cinayətlər Məhkəməsinin 15 may 2014-cü il tarixli hökmü ilə Pərviz Həşimli 8 il müddətinə azadlıqdan məhrum edilib.

❑ Cavanşir ABBASLI



# Eldar Mahmudovun oğlu rəhbəri olduğu holdinqin baş ofisinə gəlmir

## Anar Mahmudova məxsus kompleksin lüks restoranı əvvəllər yüksək vəzifəli məmurların, iş adamlarının məkanı olub

**Prezident İlham Əliyevin sərəncamı ilə oktyabrın 17-də milli təhlükəsizlik naziri vəzifəsindən azad edilən Eldar Mahmudovun oğlu Anar Mahmudovun da başı dərddədir. Keçmiş nazirin oğlu bir neçə gündür ki, şəhərin mərkəzindəki ofisinə gəlmir. Onun da fəaliyyətinin yoxlanıldığı haqda məlumatlar var.**



Musavat.com xəbər verir ki, Anar Mahmudov atasının vəzifədən uzaqlaşdırılmasından sonra Bakının Yusif Səfər küçəsi 33 ünvanında yerləşən "Crystal Plaza"dakı ofisinə gəlmir. Plazada çalışan və adının açıqlanmasını istəməyən işçilərdən öyrəndiyimiz məlumata görə, Eldar Mahmudovun işdən çıxarılmasından sonra Anar Mahmudovla yanaşı, əvvəllər plazaya gələn vəzifəli qonaqlar da "yoxa çıxıb". Belə ki, plazanın 11-ci mərtəbəsində yerləşən lüks restoran əvvəllər yüksək vəzifəli məmurların, iş adamlarının məkanı olub. Eldar Mahmudov və Anar Mahmudov bəzən öz qonaqlarını burada qəbul edirlərmiş.

Hazırda "Crystal Plaza" fəaliyyətini davam etdirir. Plazanın 11-ci mərtəbəsində restoranlar ("Salvador Dali" və "Lord" restoranları), digər mərtəbələrində isə hotel və ofis yerləşir.

Eldar Mahmudova bağlı olan iri biznes qurumlarından biri olan "Caspian Crystal" holdinqin baş ofisi də plazanın 9-cu mərtəbəsində yerləşir. Anar Mahmudov özünün rəhbəri olduğu holdinqin baş ofisinə tez-tez baş çəkirmiş. Lakin son hadisələrdən sonra o, ofisə gəlmir. Onun da fəaliyyətinin araşdırıldığı haqda məlumatlar var. Lakin hələlik nəhəng holdinqin baş ofisində heç bir yoxlama aparılmayıb.

Qeyd edək ki, "Caspian Crystal" holdinq Azərbaycanda 2006-cı ildən fəaliyyət göstərir və holdinqin İdarə Heyətinin sədri Anar Eldar oğlu Mahmudovdur.

Əlavə edək ki, "Caspian Crystal" bir neçə istiqamətdə ixtisaslaşmış böyük holdinqdir. Dünyanın hər bir yerindən gətirilmiş eksklüziv şərablar və alkoqollu içkilər təklif edən butik - "Wine City", lüks qədəhlərin istehsalçısı "Riedel Crystal" şirkətinin Azərbaycanda rəsmi distributorluğu, Avropanın ən yaxşı istehsalçılarından idxal edilən eksklüziv qida məhsullarının satışının həyata keçirildiyi "Gastronomy-1", "Gastronomy-2" və "Gastronomy-3" mağazaları, "Beluga", "Salvador Dali", "Lord", "VİP", "Velluto" və "Crystal Shikhovo" kimi lüks restoranlar, "Range Rover", "Jaquar", "Maserati" avtomobillərinin və "Dicati" motosikletlərinin rəsmi distribütoru olan "Crystal Motors" şirkəti də holdinqin tərkibinə daxildir.

Xatırladaq ki, Eldar Mahmudovun vəzifədən uzaqlaşdırılmasından sonra Milli Təhlükəsizlik Nazirliyinin ayrı-ayrı vəzifəli şəxsləri də həbs ediliblər.

❑ İlkin MURADOV

# MTN-də şantaj olunan sahibkardan şok açıqlamalar

## Maqsud Mahmudov: "Dedilər ki, 250 min manat gətirməsən, səni İŞİD üzvü və ya narkobaron elan edəcəyik, bu ittihamı boynuna almalı olacaqsan"

**"Məni şantaj edib 250 min manat pul alan MTN-çilərlə bağlı şikayətimi vəkilim hazırlayıb Baş Prokurorluğa təqdim edəcək". Bu sözləri iş adamı Maqsud Mahmudov deyib. O, MTN-ə aparılması, orada hansı üsullarla şantaj edilməsinin təfərrüatlarını da açıqlayıb. M.Mahmudov musavat.com-a veriyi videomüsahibədə azpolitika.info saytında barəsində yazılanların doğru olduğunu qeyd edib. Həmin saytda M.Mahmudovun başına gələnlər haqda təqdim olunan yazıda deyilir:**



Maqsud Mahmudov

"Bu il iyulun 4-də iş adamına zəng gəlib, özünü MTN-in əməkdaşı kimi təqdim edən şəxs ondan səhər saat 10.00-da MTN-in Antiterror İdarəsinə gəlməsini tələb edir. İş adamı deyilən saatda nazirliyə gəlir, şəxsiyyət vəsiqəsini birinci mərtəbəyə təqdim edir. Daha sonra onu nazirliyin üçüncü mərtəbəsinə aparırlar. Biznesmeni burada özünü polkovnik Azər Mehdiyev kimi təqdim edən şəxs qarşılayır. İş adamı bura dəvət edilməsinin səbəbini soruşduqda, həmin polkovnik ona terrorçu olduğunu deyib. Bildirib ki, daima Ukraynaya gedib-gəlirsən, min oyundan çıxırsan. Daha sonra polkovnik otağı tərk edir və 15 dəqiqədən sonra bir nəfərlə geri qayıdır, yanındakı şəxsi Antiterror İdarəsinin rəis müavini İlqar Əliyev kimi təqdim edir. İlqar Əliyev isə Maqsud Mahmudovu gördükdən sonra göstəriş verir ki, bu şəxsi dərhal uçota alsınlar. İş adamı nə etdiyini, hansı səbəbdən bura dəvət olunduğunun səbəbini soruşmağa cəhd edir. Bu zaman ona deyirlər ki, telefonu izlənilir, daima diqqətdədir, bilirlər ki, iş adamı olaraq güclü biznes fəaliyyəti göstərir, daima Ukraynaya gedib-gəlir. İş adamı bunların doğru və normal olduğunu bildirir, lakin cinayət etmədiyini xatırladır. Bu zaman ondan tələb olunur ki, 250 min manat versin. Ardınca biznesmenin qan təzyiqi qalxır, durumu pisləşir. Amma buna baxmayaraq, ona deyilir ki, əgər 250 min manat gətirməsə, onu İŞİD-ın üzvü və ya narkobaron elan edəcəklər, özü isə bu ittihamı boynuna almalı olacaq. Biznesmen bu zaman 250 min manatı olmadığını deyir və 3 saat orada saxlanılır. Ondan tələb olunur ki, 200 min manat versin. Lakin iş adamı bundan da imtina edir. Bu zaman iş adamı telefonla təmas qurduğu xanımla şantaj edilir, bildirilir ki, bu məsələ açıqlanacaq. Qeyd edilir ki, əgər bu baş versə, həm dostluq etdiyi xanımın valideynləri, həm də özünün ailə üzvləri bundan xəbər tutacaq. Bundan sonra iş adamına deyilir ki, Səməd Vurğun küçəsi ilə İnqilab küçəsinin kəsişdiyi ərazidə obyekti var, onu satsın və məbləği gətirsin. İş adamı şantajın qurbanı olaraq həmin gün gecə ikən 600-700 min manat dəyərində olan obyektini 290 min manata satır və bunun 120 min manatını MTN-dəki məlum şantajçı qrupuna verir. Ona Bakıdakı mülkləri və avtomobillərinin markalarını deyirlər və məsləhət görürlər ki, sussun, bu haqda heç vaxt danışmasın. Beləcə, iş adamı şantajın qurbanı olaraq obyektini satmağa məcbur edilir. Alqı-satqı prosesi isə 14 saylı Notariat Kontorunda gerçəkləşdirilir".

❑ E.HÜSEYNOV

# MTN işində “reket media” izi

**Son günlər MTN səviyyəsində baş verən həbslər, kadr dəyişikliyi fonunda media orqanlarına dair yeni məlumatlar ortaya çıxıb. AzNews.az istintaqdan və MTN əməkdaşlarından mətbuata hələlik açıqlanmayan cinayət əməlləri barədə bəzi detalları öyrənə bilib.**

Məlum olub ki, Milli Təhlükəsizlik Nazirliyi hədəfə götürdüyü qurumu və ya şəxsi ictimai nüfuzundan asılı olaraq müxtəlif üsullarla ləkələməyə çalışıb, sonra da öz niyyətlərini həyata keçirirmiş. Bu yolda onlar mətbuat rıçaqlarından əhəmiyyətli dərəcədə yararlanmağı bacarıblar. Araşdırma zamanı məlum olub ki, MTN-in nəzarətində bir sıra mətbuat orqanları var və onlar açıq reketçiliklə məşğuldur. Həmin mətbuat orqanları vasitəsiylə hədəfə götürdükləri “obyekt” əvvəlcə “vurulur”, onların “cinayət əməlləri”, “korrupsiyaya yol verməələri” tirajlanır, sonra isə bunu əllərində əsas götürən MTN-çilər hərəkətə keçib soyğunçuluqla məşğul olurmuşlar.

Məlumatda həmçinin qeyd olunub ki, ağır cinayətlər törədən MTN-çilər təkcə özlərinin hazırladıqları materialları nəzarətlərindəki mətbu orqanlara ötürüb, sonra əməliyyat qurmaqla kifayətlənməyiblər. Həmçinin xüsusi bir qrup bütün mətbu orqanları izləyib, “vurula” biləcək “obyektlərin” siyahısını hazırlayırmış. Hansı qurum və şirkətlə bağlı şikayət və ya tənqidi material çap olunurmuşsa, dərhal onlarla bağlı araşdırıma aparılıb, “basqının” perspektivləri müəyyənləşdirilirmiş.

Çox güman ki, bu işlərdə MTN-lə əlbir olan bəzi mətbu orqanların rəhbərləri də istintaqa cəlb ediləcək. Sayt yazıb ki, onların adları və məhz mətbuatda gedən yazılara əsaslanaraq zərər yetirilən şəxslərin bəzilərinin kimliyi onlara bəlli olsa da, istintaq getdiyindən tirajlamırlar.

Məlumatda həmçinin qeyd olunub ki, MTN-in sifarişlərini yerinə yetirən həmin reket media qurumları nə Eldar Mahmudovun işdən azad olunması, nə də bu proseslə bağlı hər hansı informasiya yayımlayıblar. Qeyd olunan mətbu orqanlarda hətta prezidentin məlum məsələ ilə bağlı sərəncamına da rast gəlinmir.

Bu isə illərdən bəri ölkədə reket qəzetlərə, saytlara qarşı aparılan mübarizənin effektsizliyinin səbəblərini üzə çıxarır. Məlum olur ki, reketlərin ölkədə bu qədər geniş əl-qol açmasının səbəbi onların arxalı olması, yüksək dairələrlə əlbir çalışması imiş. Əks halda, fəaliyyətinə dərhal xitam verilər, ya da hansısa formada cəzalandırılardı.

**“Yeni Müsavat” qəzeti baş redaktorunun 1-ci müavini Azər Ayxan bildirib ki, onsuz da media reket qəzetlərin arxasında ayrı-ayrı dövlət qurumlarının dayanması barədə məlumatlı idi:** “Yoxsa onlar bu dərəcədə cəsarətli və riskli ola bilməzdilər. Hazırda baş redaktoru həbsdə olan reket qəzetlərdən biri məhz bu nazirliyin çətiri altında uzun illər fəaliyyət göstərirdi. Amma bu məsələdə başqa bir məqam da var. Media hüquq-mühafizə və digər icraedici orqanların fəaliyyətinə də özü bilmədən və istəmədən dəstək verir, necə deyərlər, çörəklərinin üstünə yağ çəkir. Məsələn, bəzən bir ifadə işlədilir ki, ”əməliyyat məlumatları nəticəsində..." Bu məlumatların əksəriyyəti mediada çıxan xəbərlərdən ibarətdir. Hüquq-mühafizə orqanları bizim yazdığımız xəbərdə və ya hazırladığımız reportajda özünə uyğun əməliyyat məlumatları tapa bilirlər".



## Mehman Əliyev: “Demək olmaz ki, onları yalnız MTN himayə edirdi”



## Azər Ayxan: “Bəzən media istəmədən dövlət orqanlarının çörəyinin üstünə yağ çəkir”

**A.Ayxan dedi ki, hakimiyyətin siyasi qoluna rəhbərlik edən məmurlar da yerli icra orqanlarının fəaliyyəti barədə KİV-dən məlumat ala bilirlər. Müsahibimizin dediyinə görə, nisbətən aşağı ranqlı məmurların “Yeni Müsavat” və digər tənqidçi mediada barələrində tənqidi yazıların yazılmasından narahat olurlar:** “Çünki bu yazılanların böyük əksəriyyəti həqiqəti əks etdirir və bu faktların tirajlanması o məmurlara ciddi problemlər yaradır. İndi belə çıxır ki, biz özümüz də bilmədən dövlətin gücünü öz şəxsi mənafeləri üçün istifadə edən bəzi məmurlara reketçilik etmək, ayrı-ayrı şəxslərdən pul qoparmaq üçün şərait yaratmışıq. Biz demirik ki, mətbuatda yazılanı dövlət orqanları araşdırmasınlar. Biz demirik ki, həmin informasiya yoxlanılmasın. Amma mətbuatda çıxmış yazıya istinad edərək hansısa bir şirkətə, iş adamına çökmək, var-yoxunu əlindən alıb, zəlil günə salmaq yolverilməzdir. Burada əsla jurnalistikanın suçu yoxdur. Günah dövlətin gücünü öz şəxsi çıxarları naminə kullanan məmurlarda və hüquqi boşluqlardadır”.

**“Turan” informasiya agentliyinin direktoru Mehman Əliyev hesab edir ki, ümumiyyətlə, reket jurnalistikası ancaq MTN-lə əlbir olmayıb, bütün orqanlarla əlaqələr qurublar:** “Demək olmaz ki, onları ancaq bu qurum himayə edirdi. Nazim Quliyev vardı, ”İdeal" qəzetinin redaktoru. Onun da arxasında dayananlar vardı, amma sonda həbs olundu. Digər tərəfdən, kompromatlar bütün qəzetlərə sızdırılır. KİV-lərdən bu tipli istifadələr həmin qurumlar və şəxslər tərəfindən olub və var. Bunu sırf MTN-çilərin cinayəti kimi göstərmək doğru deyil. Bu, iqtidar sistemində bir idarəçilik üsuludur".

**M.Əliyev deyib ki, hər nazirliyin diqqətində, himayəsində olan media qurumları var. Və onlardan zaman-zaman bu məqsədlər üçün istifadə olunur:** “Vaxtilə Fərhad Əliyevə qarşı bir informasiya agentliyi yaradılmışdı. Onunla bağlı kompromat yayırdılar ancaq. Bütövlükdə belə bir ənənə var. Asılı olan medialarda xüsusən. Bunu MTN-çilərin xüsusi bir əməli kimi qiymətləndirmək doğru deyil. Daha dərin, ciddi məsələlər var. Bütün hakimiyyətə şamil olunur. Təkcə MTN-in problemi deyil”.

❑ Sevìnc TELMANQIZI

# “Namiq Abbasovun zamanında belə biabırçılıqlar ola bilməzdi”



Namiq Abbasov



Ərəstun Oruclu

## Ərəstun Oruclu iki naziri müqayisə etdi: “MTN-i əvvəlki vəziyyətinə qaytarmaq üçün 5 il zaman lazımdı”

**Eldar Mahmudovun milli təhlükəsizlik naziri vəzifəsindən azad olunmasının üstündən günlər ötməsinə baxmayaraq, məsələ hələ də aktuallığını saxlayır. Hətta gün-gündən bu məsələ daha çox müzakirə mövzusuna çevrilir. Buna səbəb də sabiq nazirin yoxluğu, onun vəzifədən uzaqlaşdırılmasından sonra ona yaxın şəxslərin həbsi və MTN-də yaşanan məlum hadisələrdir.**

E.Mahmudovun vəzifəsindən azad edilməsi 1994-2004-cü illərdə milli təhlükəsizlik naziri olmuş Namiq Abbasovu yada salır. Hər kəs Namiz Abbasovun zamanındakı MTN haqda müsbət danışır. Həmin dönəmdə bu qurumda rüşvətxorluğun və korrupsiyanın olmadığı söylənilir. Ən əsası, N.Abbasov vətənpərvər, peşəkar bir çekist olaraq xarakterizə edilir.

**Sabiq MTN-çi Ərəstun Oruclu “Yeni Müsavat”a açıqlamasında hər iki sabiq nazirin rəhbərlik dönəminin fərqli və oxşar cəhətlərini belə dəyərləndirdi:** “Əvvəlcə oxşar cəhətlərdən başlayardım. Hər halda, MTN kəşfiyyat və əks-kəşfiyyat orqanı kimi dövlət qarşısında xidmətlər göstərib. Bu faktdır. Təbii ki, hər iki şəxs siyasi hakimiyyətin müdafiəçisi kimi fəaliyyət göstərib. Bu da təbiidir. Avtoritar ölkələrdə xüsusi xidmət orqanlarının başlıca vəzifələrindən biri siyasi hakimiyyəti qorumaqdır. Digər məsələlərdə düşünürəm ki, heç bir oxşar cəhət yoxdur. Biz dəfələrlə mətbuat və məhkəmələrdə eşitdik ki, Milli Təhlükəsizlik Nazirliyində işgəncələr olub. NİDA-çıların məhkəməsində həmin işgəncələri həyata keçirən şəxslərin konkret adları da çəkildi. Amma nə məhkəmə, nə də prokurorluq buna bir reaksiya vermədi. Namiq Abbasovun nazir olduğu və ondan əvvəlki dönəmdə MTN-də işgəncə faktı ağlagəlməz bir şey idi. Bunu təsəvvür etmək belə çətin idi ki, MTN-də kiməsə işgəncə verələr. Bundan əlavə, Namiq Abbasov nazir olduğu və ondan əvvəlki dönəmdə biz MTN-in rüşvət alması, korrupsiya faktları, hansısa şirkətə təzyiq edib onlardan pul qoparması kimi şeylərin şahidi olmamışıq. Düşünmürəm ki, kimsə mətbuatda belə xəbər oxusun, yaxud şahidi olsun. Amma son 11 ildə MTN-də baş verənlər sıravi əhali arasında belə, ən çox danışan məsələlərdən biri idi. MTN şirkətləri, ticarət mərkəzlərini yoxlayırdı. Hansı ki, bunlar bu orqanın səlahiyyətinə aid məsələ deyildi”.

**Ə.Oruclu N.Abbasovun nazir olduğu zamanlarda MTN-in maksimal dərəcədə məxfi fəaliyyət göstərdiyini də qeyd etdi:** “Məxfi fəaliyyət göstərmək bu orqanın təbiətinə xas olan cəhətdir. Bəzi ölkələrdə MTN binasının harada yerləşdiyi barədə belə xəbər yoxdur. Sıradan bir vətəndaş bilmir ki, bu bina harda yerləşir. Azərbaycanda isə Eldar Mahmudov dönəmində az qala MTN əməkdaşlarını barmaqla göstərirdilər. MTN əməkdaşı olan gənclər vəsiqəni sanki yol polislərinə göstərmək üçün alırdılar. MTN-ə hansısa kanallarla işə düzəlmək məsələsinə gələk. Eldar Mahmudovdan qabaq bu, qeyri-mümkün idi. Mən Elçibəy hökuməti tərəfindən təqdim olunmuşdum. Yoxlanılmağım 6-8 ay vaxt apardı. Orada konkret tələb var idi ki, 30 yaşdan yuxarı şəxslər işə götürülmürdü. Amma biz gördük ki, Rusiya və digər ölkələrdən yaşı 50-ni ötmüş şəxsləri MTN-ə işə götürdülər. Hilal Əsədovu misal göstərə bilərik. Hətta bu şəxsləri general rütbəsinə qədər böyütdülər. Bu, əvvəlki dönəmdə təbii ki, mümkün deyildi. Səbəblərdən biri Namiq Abbasovun sistemi bilməsi və həmin sistemdə yetişməsi ilə bağlı idi. Digər səbəblərdən biri də, təbii ki, Heydər Əliyevin bu orqana münasibətindən irəli gəlirdi. Çünki o, həmin orqanın rəhbəri olmuşdu, qurumun fəaliyyət mexanizmlərini gözəl bilirdi. Heydər Əliyevin yanında başqa cür işləmək mümkün deyildi. Təsəvvür edə bilmirəm ki, Eldar Mahmudov Heydər Əliyevin dönəmində MTN-in sıravi əməliyyatçısı ola bilərdi. Bu, qeyri-mümkün idi. Orada çalışan yüzlərlə əməliyyatçının üzərinə kölgə salmaq istəmirəm. Müxtəlif uğurlu əməliyyatlar keçirilib. MTN-in Antiterror Mərkəzinin fəaliyyətində sırf siyasi proseslərə müdaxilələr görmüşük. İlqar Əliyevin adı tez-tez hallanır. Dəfələrlə bu şəxsin adı mətbuatda hallanıb. Akif Çovdarovun aylarla fotoları qəzetlərdə yayıldı. Namiq Abbasovun zamanında belə bir əməkdaş MTN-də çalışa bilməzdi. Bir dəfə adının və fotosunun hallanması kifayət edirdi ki, həmin şəxs orqandan uzaqlaşdırılsın. MTN əməkdaşı informasiya daşıyıcısı olaraq məxfi şəxsdir. Dövlətin məxfi məmurudur. Burada hər iki nazir arasındakı heç bir müqayisədən söhbət gedə bilməz. Daha çox ziddiyyət olan mənzərələr mövcuddur”.

**Sabiq MTN-çi qurumun əvvəlki vəziyyətinə qaytarılması üçün uzun zaman vaxt tələb edildiyi qənaətindədir:** “MTN-in Namiq Abbasov dönəminə qaytarılmasına ehtiyac varmı, yaxud Eldar Mahmudov MTN-i qalsınmı? Əgər əvvəlki duruma qaytarmaq istəyi varsa, bu, uzun müddət iş tələb edir. İlk növbədə, orqanın özündə ciddi təmizləmələr tələb olunur. Bir sıra məsələlər var ki, dövlət əhəmiyyətlidir. Bunun üçün mətbuata açıqlamaq istəmirəm. Amma hər birimiz məlumatlı insanlarıq. Bu orqan haqqında bildiyim çox pis şeylər var. Xarici kəşfiyyatların ora adam yeritməsi və başqa məsələlərlə bağlı. Bunlar ciddi şəkildə nəzərdən keçirilməlidir. Yalnız bu halda orqan 5 ildən sonra əvvəlki durumuna qayıda bilər”.

**Ə.Oruclu N.Abbasovun vəzifədən uzaqlaşdırılması səbəblərinə də toxundu:** “Düşünürəm ki, onun güclü fiqur kimi hakimiyyətə təhlükəsi kifayət qədər idi. Heç kəs belə bir nazirin o postda oturmasını istəmir. Əksəriyyət bunu istəmirdi. Sonda buna nail oldular. Namiq Abbasov, sadəcə, vəzifədən çıxarıldı. O, vəzifədən azad olunarkən, bir MTN əməkdaşı belə həbsə alınmadı. Səs-küylü işdən çıxarılmalar da olmadı. Bunun özü onu göstərir ki, bugünkü müqayisə olunan məsələlər ortada olmayıb. Çox güman ki, siyasi səbəblər olub”.

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT

N 234 (6262) 22 oktyabr 2015

# BTRİB rəisinin "MTN işi"ndə rolu nə olub?

## İlham İsmayıl: "Son zamanlar Milli Təhlükəsizlik Nazirliyində telefonların dinlənilməsi daha çox başqa məqsədlərə görə idi"

**Oktyabrın 20-də vəzifəsindən azad olunan milli təhlükəsizlik naziri Eldar Mahmudovun qohumu - Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin (BTRİB) rəhbəri Beytulla Hüseynov da işdən çıxarıldı və hüquq-mühafizə orqanları tərəfindən saxlanıldı.**

Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin (BTRİB) rəhbəri Beytulla Hüseynovun vəzifəsindən azad olunması təsdiqlənib.

Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən «Trend»ə bildiriblər ki, B.Hüseynov nazir Əli Abbasovun əmri ilə işdən azad olunub.

Qeyd edək ki, B.Hüseynov sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun qohumudur. E.Mahmudov prezident İlham Əliyevin sərəncamı ilə vəzifəsindən azad edilib.

Məlumatlara görə, Hüseynovun bu quruma rəhbər olmasına Eldar Mahmudov yardım edib. Buna səbəb isə ölkədə telefon danışıqlarına daha rahat şəkildə nəzarət etmək olub.



Beytulla Hüseynov

Bəs adıçəkilən qurumun Milli Təhlükəsizlik Nazirliyi və bilavasitə Eldar Mahmudovla gözə görünməyən əlaqəsi nə olub?

**Suala musavat.com-a açıqlamasında Milli Təhlükəsizlik Nazirliyinin sabiq polkovniki İlham İsmayıl cavab verib. O bildirib:** "Respublikanın əməliyyat-axtarış fəaliyyəti haqqında qanunu var. Bu qanuna əsasən, Azərbaycan Respublikasının müvafiq orqanı, konkret olaraq Milli Təhlükəsizlik Nazirliyi bütün rabitə vasitələrindən əməliyyat məqsədi ilə dinləmə həyata keçirə bilər. Yəni təkcə Bakı Telefon Rabitə İstehsalat Birliyi ilə yox, bütün rabitə qovuşaqları ilə dinləmə apara bilər. Bu, qanunla tənzimlənir. Sadəcə olaraq, 24 saat ərzində məhkəmənin qərarı olmalıdır ki, məhz bu adamın telefon danışıqlarına filan səbəbə görə qulaq asılır. Lakin son zamanlar Milli Təhlükəsizlik Nazirliyində telefonların dinlənilməsi daha çox başqa məqsədlərə görə idi. Bununla yuxarıda söylədiyim məsələnin əlaqəsi yoxdur".

Onu da qeyd edək ki, BTRİB paytaxt ərazisində dövlət hakimiyyət və idarəetmə orqanlarına, idarə, müəssisə və təşkilatlara, xarici hüquqi şəxslərə, onların nümayəndəliklərinə və əhaliyə bütün növ telefon, genişzolaqlı internet, radiorabitəsi, digər müasir telekommunikasiya və multiservis xidmətləri göstərir. Yəni qurumun sahib olduğu imkanlar ölkədə istənilən şəxsin danışığını dinləməyə imkan verir. Məhz bu səbəbdən də Eldar Mahmudov vəzifəyə gəldikdən sonra dərhal öz qohumu olan B. Hüseynovu həmin idarəyə rəhbər təyin edib. Məlumatlara görə, 2004-cü ildən etibarən quruma rəhbərlik edən Beytulla Hüseynov son zamanlar o qədər arxayınlaşıbmış ki, heç kimi saya salmırmış.

Eyni zamanda məlumatlara görə, "Aztelekom" İstehsalat Birliyinin sədri Məhəmməd Məmmədovla da Beytulla Hüseynovun arasında problemlər yaşanıb. Onlar arasında gərginlik adını qeyd etdiyimiz iki qurumun birləşəcəyi ilə bağlı xəbərlərin yayılmasından sonra başlayıbmış.

Son hadisələrdən sonra Bakı Telefon Rabitəsi İstehsalat Birliyi və "Aztelekom" İstehsalat Birliyinin birləşdirilməsi zamanı yaranan yeni quruma Məhəmməd Məmmədovun təyin olunacağı istisna deyil.

Əldə etdiyimiz son məlumatlara görə, artıq Beytulla Hüseynovun yaxın əlaqədə olduğu rabitəçilərin də işi hüquq-mühafizə orqanları tərəfindən yoxlanılır.

❑ Əli RAİS

# "Mənim adım rüşvətdə səslənirsə..." - Mübariz Mənsimov



**"Bizim adımızı kimsə rüşvətdə və yaxud başqa hadisələrdə səsləndirirsə bunlar hamısı cəfəngiyyatdır". Azvision.az xəbər verir ki, bu barədə Türkiyədə yaşayan Azərbaycan əsilli milyarder, tanınmış iş adamı, "Palmali" şirkətlər qrupunun prezidenti Mübariz Mənsimov deyib. O, fikrini belə davam etdirib:**

"Yazar kimdirsə bilmirəm. Amma mən bu işi belə buraxmayacam. Səhv adama böhtan atırlar. Qanunsuz işlər olan yerdə "Palmali" olmaz, mən olmaram. "Palmali" deyilən şirkət mənəm" - deyə o əlavə edib.

# Barəsində həbs xəbəri yayılan rəis danışdı

## Fətulla Seyidov: "Günahım aşkarlanarsa, cəzamı çəkməyə hazıram"



**Daha bir rabitə işçisinin hüquq-mühafizə orqanları tərəfindən saxlanılması ilə bağlı xəbər yayılıb. Musavat.com-a daxil olan məlumata görə, Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin (BTRİB) rəhbəri Beytulla Hüseynov saxlanıldıqdan sonra onunla yaxın münasibətdə olan rabitəçilərin də işlərində yoxlama başlayıb.**

Əldə etdiyimiz bilgiyə görə, bu gün səhər saatlarında hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən Nizami rayon Telefon Qovşağının rəhbəri Fətulla Seyidov saxlanılıb. Onun fəaliyyətinin yoxlanılmağa başladığı, özününsə istintaqa cəlb edildiyi deyilir.

Fətulla Seyidov özü musavat.com-a açıqlamasında xəbəri nə təsdiq, nə də inkar etdi. F.Seyidov bildirdi ki, Beytulla Hüseynovla qohumluğu yoxdur: "Biz, sadəcə olaraq, onunla birlikdə Naxçıvanda çalışmışıq. Yəni iş yoldaşı olmuşuq. Ümumiyyətlə, rabitəçilər hamısı bir-biri ilə yaxındır. Onunla hər hansı bir qohumluğum yoxdur. Mən amasiyalıyam, o, Sədərəkdəndir. İnstitutu bitirdikdən sonra təyinatla Naxçıvanda işləməyə getdim, Beytulla müəllimlə ordan tanışlığımız başladı. Hökumət var, qanun var. Əgər mənim hər hansı bir günahım olacaqsa, bu dövlətə layiq deyiləmsə, tutub həbs edəcəklər. Bundan sıxıntım yoxdur. Şükür ki, hər şey göz qabağındadır" - deyə F.Seyidov bildirib.

Xatırladaq ki, oktyabrın 20-də Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin rəisi Beytulla Hüseynov hüquq-mühafizə əməkdaşları tərəfindən saxlanılıb. Onun "MTN işi"nə görə tutulduğu haqda iddialar var.

❑ Əli RAİS

# Agentlər səfirliklərə necə yol tapır...

## Rusiya təcrübəsi ilginc detalları ilə fərqlənir

**İslam Əməkdaşlıq Təşkilatının Avropa İttifaqı yanındakı keçmiş səfiri Arif Məmmədovun milli təhlükəsizlik naziri Eldar Mahmudovun vəzifədən azad edilməsi haqqında yaydığı açıqlama hələ də müzakirə mövzusudur. Sabiq səfir özünün facebook səhifəsindəki 5 bəndlik açıqlamasında Eldar Mahmudovun qəfil işdən çıxarılması səbəbləri barədə öz mülahizələrini və eyni zamanda ondakı məlumatları bölüşüb.**



O iddialardan biri isə ölkənin bütün səfirliklərində MTN-in çoxsaylı əməkdaşlarının işləməsi ilə bağlıdır. Sabiq səfirin sözlərinə görə, onlar Eldar Mahmudova şəxsən sadiq kadrlardır və onların bir neçəsi bəzi diplomatlar kimi geri qayıtmayacaqlar və siyasi mühacir statusu üçün müraciət edəcəklər.

Maraqlıdır ki, artıq bu iddia rəsmi səviyyədə də öz təsdiqini tapıb: "Beynəlxalq diplomatik praktikaya və dövlətlərarası əməkdaşlığın səviyyəsinə uyğun olaraq, diplomatik nümayəndəliklərdə digər dövlət qurumlarının əməkdaşlarının da təmsil olunması adi haldır". **Bunu Xarici İşlər Nazirliyinin mətbuat katibi Hikmət Hacıyev deyib. Onun sözlərinə görə, bu çərçivədə ölkədən və ikitərəfli əməkdaşlığın xarakteri və səviyyəsindən asılı olaraq Azərbaycanın müvafiq diplomatik nümayəndəliklərində Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Xüsusi Dövlət Mühafizə Xidməti, Dövlət Gömrük Komitəsi və Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları da təmsil olunurlar:** "Qarşılıqlılıq prinsipi əsasında digər dövlətlərin də Azərbaycan Respublikasındakı diplomatik nümayəndəliklərində həmin ölkələrin müvafiq qurumlarının əməkdaşları xidmət edirlər".

Amma araşdırmalarımız zamanı məlum oldu ki, A.Məmmədovun dediyi, ardınca XİN rəsmisi tərəfindən təsdiqlənən bu informasiya xüsusi xidmət orqanlarının iş prinsipidir. Və bu, illərdir ki, bu formada davam edir. SSRİ DTK-sının Böyük Britaniyadakı baş rezidenturasının keçmiş rəhbəri, 74 yaşlı A.Qordievskiy müsahibələrində bildirir ki, Rusiyanın həmin ölkədəki səfirliyinin binasında hazırda çoxlu sayda xəfiyyə çalışır. Onun sözlərinə görə, bu agentlər arasında səfirliyin rəsmi işçisi olanlar da var, qeyri-rəsmi işçilər də. Sonuncular xüsusi xidmət orqanlarında çalışmasalar da, səfirlikdə baş verənlərlə bağlı mütəmadi olaraq Rusiya prezidentinə məlumatlar ötürürlər. Hətta onların arasında rusiyalı oliqarxlar da üstünlük təşkil edirlər: "Hazırda Londonda 37 KQB agenti var. Onlardan 14-ü Rusiya Hərbi Kəşfiyyatında çalışır. Mən bunları öz mənbələrimdən öyrənmişəm".

Məlumatlar arasında həmçinin qeyd olunub ki, rusiyalı agentlər ABŞ-da vaxtlarını daha çox üç məkanda keçirirlər - Rusiyanın Vaşinqtondakı səfirliyində, Nyu- Yorkda *(Rusiyanın BMT-dəki təmsilçiliyi binasında)* və San Fransiskodakı baş konsulluqda. Amma bu mövzu ilə bağlı dəqiq rəqəm söyləmək mümkün deyil. Belə ki, səfirlik xəfiyyələrinin sayı heç vaxt dəqiq olmur. Rusiya mətbuatına inansaq, bu ölkənin xaricdəki səfirliklərində çalışanların yarısı xüsusi xidmət orqanlarının əməkdaşlarıdır. Bununla paralel, Rusiya xüsusi xidmət orqanları xaricdəki səfirlik işçilərinin 80 faizi ilə birbaşa əlaqədə, əməkdaşlıqdadır. Onların bəziləri heç də kəşfiyyata bağlılıqlarını gizləmirlər. Amma gecə-gündüz çox peşəkarcasına çalışıb, özünü maskalayanlar da az deyil.

❑ Sevinc TELMANQIZI



# Ziya müəllimin avtotomiyası

Zamin HACI
zaminhaci@gmail.com

**Bəzi adamlar yumurtanın bahalaşmağından, neftin ucuzlaşmasından narahatdır. Amma cənab prezidentin apardığı uğurlu islahatlar göstərir ki, qəti narahat olmaq lazım deyildir. Hər böhran dalğasında 7-8 general tutub bənd düzəltsək seldən uca millətimizin balağı da islanmaz. Zarafat deyil, 10-15 ildir yığan generallar var, onları sağsan neçə ağır illər yola verərsən.**

Ziya müəllim də bu fırtınadan salamat çıxmış kimi görünür. Ona halaldır. Mən bir Biləcəri sakini olaraq bütün dəmiryolçular adından Ziya müəllimə azarkeşlik edirəm. Neçə sunami gəlib keçmişdir, amma o, mətin qaya kimi yerində qalır. Əsl ziyalıdır. Bir az da poetik jurnalist araşdırmaları aparsam Ziya müəllimi hava balonunda uçan səyyah hesab edə bilərəm. Balon ağırlaşıb yerə düşmək istəyəndə Ziya müəllim ballastları atır, təzədən pərvazlanır, səmanın ənginliklərində üzür. Misal üçün, son bir ildə nazirin atdığı ballastlar saysızdır, çünki tufan bu dəfə göydən gəlmişdi. Ziya müəllim səbətin kənarında dayanıb üfüqləri seyr edir, "uf" demədən öz şirkətlərini, Nəqliyyat Nazirliyinin səlahiyyətlərini aşağı atır. Hətta arada doğma qardaşının deputat mandatını da atdı.

Nə edə bilərsən... Əsas odur uçasan, ucalarda olasan. Səbəti yenə doldurmaq olar, ya qismət, ya mədət... (Düzü, hal-hazırda "Ya mədət" deməyin bir az düşər-düşməzi ola bilər, o üzdən məsləhətdir çox deməsin).

Balon o dərəcədə yüngülləşmişdir ki, Ziya müəllim hətta uçub İsveçrəyə getdi. Belə yaxşıdır. Yoxsa bəzi generallar o qədər kisə yığıblar tərpənə bilmirlər. Çevik olmaq lazımdır. Rejimin təkamül nəzəriyyəsinə və praktik təcrübəyə əsasən çevik olanlar həyatda qalır, hərəkətsizlərin nəsli kəsilir. Gördün qovurlar, kisələri at. Kisə qurtaranda quyruğunu qopar, özün aradan cır. Qoy təqibçilərin başı quyruqla oynamağa qarışsın.

Milyon illərdir kərtənkələlər məhz bu avtotomiya üsulu ilə həyatda qalmağı bacarmışlar. Quyruğun sonradan bərpası, obyektləri və səlahiyyətləri geri yığmaq isə regenerasiya adlanır. Bu üsuldan tək kərtənkələlər deyil, səkkizayaqlar (ayağını atır), xərçənglər (qısqacını qoparır), bir çox həşəratlar yararlanır. Holoturiyalar - dəniz xiyarları adlı canlılar hücumdan qorunmaq üçün maraqlı bir üsul seçmişdir. Onlar, pis çıxmasın, yoğun bağırsaqlarını çölə atırlar, bu zaman suyu da bulandırırlar, bilmirsən kimi tapıb tutasan.

Səudiyyə Ərəbistanında yaşayan iynəli siçanlar isə avtotomiya təkamülü nəticəsində elə bir səviyyəyə çatıblar ki, istənilən nazir onlara həsəd apara bilər: bu siçanlar təhlükə anında dəridən çıxırlar! Bütün dərilərini atıb aradan cırırlar, düşmən də dəri əlində, şok durumunda qalır. Doğrudan da, dəridən-qabıqdan çıxan məmura daha nə edə bilərsən? Özü öz dərisini soyan şəxsə batmaq mümkün deyildir.

Pulsuz biologiya dərsimiz bu qədər. (Öz aramızdır, Mikayıl müəllimin repetitorlarının yanına getsəniz bu dərsə görə minimum 20-30 manat ödəməli olardınız. Qədrimi bilin, bir gün mən də yazmağı atıb gedəcəyəm). Gəlin ən yaxşısı budur Bakı Beynəlxalq Avtovağzalının sürüşməsi mövzusuna diqqət edək.

Bir aya yaxındır o zırpı, "Titanik"ə bənzər bina Ziya müəllimin aysberqlə toqquşmasının güdazına gedərək batmaqdadır. Fakt budur ki, avtovağzalın bir tərəfi artıq işləmir, sürüşmə, çökmə təhlükəsi ilə bağlı elan olunmuşdur. Bəs bu zırpı binanın tikintisinə axıdılan yüz milyonlarla manat dövlət pulunun hesabını kim verəcək? Niyə heç olmazsa memarı tutub qulağını dartan yoxdur? Axı binanın təhvilindən heç 10 il də keçməyib.

Elan edilən sürüşmə səbəbi də lətifədir: deyirlər orda Xaləddin müəllim (Binəqədi icra başçısı) avtoyolun qırağında gül əkib, gülü suvarıblar, su axıb çat yaradıb. Təsəvvür edirsinizmi? Görün bunlar nə qədər harınlayıblar, milləti necə dolayırlar. Gül suvarmaqla çökən avtovağzal qayırıblar sən demə...

Görəsən hansısa nəqliyyat müfəttişi qaz buraxsa, avtovağzalın damı uçarmı?

## MTN-də "çistka"nın əsl səbəbi: müdaxilə o qədər vacib olub ki...

**Milli təhlükəsizlik naziri Eldar Mahmudovun qəfil vəzifədən çıxarılması, həbslər və MTN-in rəhbər strukturlarının generallarının heç bir rəsmi sərəncam elan edilmədən işdən uzaqlaşdırılaraq nəzarətə alınmalarının əsl səbəbləri hələ də sirr olaraq qalır. Vaxtilə Hacı Məmmədov olayında əgər yalnız onun DİN-də işlədiyi bir struktur nəzarət altına alınmışdısa, indi MTN-in bütün generaliteti şübhəlilər sırasına düşüb.**



# Eldar Mahmudovun "kölgə hökuməti" - açar fiqur haradadır?

### Sabiq nazirin və onun komandasının bu cür total nəzarətə alınması, bəzilərinin isə həbsi yalnız sahibkarların incidilməsi ilə əlaqəli deyil, bu yalnız bir epizod, bir pərdədir - bəs əsl sirr nədir...

Həbs edilənlərə elan edilən ittiham - səlahiyyət həddini aşma və qanunsuz yoxlamalar - yalnız aysberqin görünən tərəfidir. Çünki MTN iqtisadi struktur deyil və ən uzağı iki idarə sahibkarlara əngəl yarada, qanunsuz yoxlama apara və həbslər sanksiyalaşdıra bilər. Məsələn, əks-kəşfiyyat idarəsi, eləcə də barəsində çox danışılan gizli telefon izləmələrini həyata keçirən Monitorinq Xidmətinin və ya Antiterror Mərkəzinin sahibkarların incidilməsi ilə nə əlaqəsi ola bilər? Rəsmi məlumatlarla üst-üstə düşən nəticə odur ki, MTN-in bütün strukturları iş-güclərini bir kənara qoyub ancaq sahibkarları, necə deyərlər, incitməklə, onlardan pul toplamaqla məşğul olurmuşlar. İndiyədək həm MTN-də, həm də digər nazirliklərdə rəhbərlik dəyişəndə məgər bu cür həbslər aparılırdımı? 2005-ci ildə iki "inqilabçı" nazirin kabinetlərində qandallanmasından sonra belə yalnız Fərhad Əliyevlə Əli İnsanovun ən yaxın kadrları işdən getməli oldu. İndi isə Eldar Mahmudovun işdən çıxarılması ilə MTN kimi bir strukturda, hərbi kəşfiyyatçıların ifadəsi ilə desək, "çistka" başlayıb. Sabiq nazir də daxil, dövlətin bütün sirlərinə bələd olan ən mühüm idarələrin general rütbəli rəhbərlərinin faktiki ev dustağı edilməsi ilə MTN-də baş verənləri yalnız sahibkarlara edilən zülmlə bağlamaq mümkünsüzdür.

Eldar Mahmudovun Beynəlxalq Bank rəhbərliyində oturmuş qudası səbəbindən hökumətlə problemləri vardı, külli miqdarda kreditin həm də onun razılığı ilə müxtəlif adamlara verildiyi təsdiqlənmişdi. Üstəlik, bəzi borclu iş adamlarına kredit, ümumiyyətlə, verilməyib, onlara MTN binasının zirzəmisində yalnız külli miqdarda kredit sənədinə qol çəkdirilib. Amma bütün bunlardan indi nəzarət altına alınan digər generalitet xəbərdar olmaya da bilərdi. Xəbərdar olublarsa, MTN-ə nəzarət etməli olan dövlət strukturları dura-dura nazirə qarşı nə edə bilərdilər ki? O halda ya nazir bu adamları yığılan vəsaitlə yaxşı "qidalandırıb", ya da nazirlikdə onların da rəhbərlik etdiyi strukturlarda rüşvət meydan sulayıb. Amma necə inanasan ki, MTN-in Antiterror Mərkəzi dövlət təhlükəsizliyini təhdid edən cinayətkarı rüşvət alıb həbsdən azad edə. Necə inanmaq olar ki, indi rəhbərliyi həbsdə olan MTN-in Monitorinq Xidməti ölkə rəhbərliyinin telefon danışıqlarını "qara otağından" hansısa oliqarx nazirin və ya xarici dövlətin pullu sifarişi ilə dinlətsin, bundan para qazanmaq fikrinə düşsün? İnanmaq olmur. Amma həbslər o versiyanı gücləndirir ki, Eldar Mahmudov və onun komandasının bu cür total nəzarətə alınması, bəzilərinin isə həbsi yalnız sahibkarların incidilməsi ilə məhdudlaşmır, bu bir epizod, bir pərdədir. Bəs əsl sirr nədir?

Dünən "Yeni Müsavat"a bilgili mənbədən belə məlumat verilib ki, sabiq nazir əmri verilən gündən - 17 oktyabr axşamından MTN-in binasındadır. Yəni o, ev dustaqlığına buraxılmayıb, elə öz nazirliyində nəzarətdə saxlanılır. İddianın nə dərəcədə doğru olduğunu demək mümkün deyil, amma bu sirr pərdəsində Eldar Mahmudovun açar fiqur olduğu şübhəsizdir. İşdən çıxarılandan sonra hər şey onun adı ətrafında cərəyan edir. Onun biznesi, şirkətləri, digər strukturlardakı vəzifəli adamları, hətta parlamentdə yenidən mandat almaq istəyən deputatları...

Eldar Mahmudovun hakimiyyətdə klan yaratdığı söylənilir və onunla bağlı bir neçə nazir və komitə sədrinin olduğu deyilir. Keçmiş səfir Arif Məmmədovun E.Mahmudovun əlindəki rıçaqlardan istifadə edərək, hakimiyyət daxilində ən effektli klan qurub ona başçılıq etməsini deməsi bu hadisələrə qismən işıq salır. Sabiq səfir deyib ki, Mahmudov klanına çox məşhur nazirlər daxil imiş. E.Mahmudov bu klan vasitəsilə Prezident Administrasiyası ilə direşir və özü kimi, administrasiyanı saymayan nazirlərin də "yeyilməməsi" üçün onları müdafiə edirmiş.

Birbaşa prezidentə bağlı olan, mühüm əhəmiyyətli dövlət postu etibar edilən bir nazir, əcəba, özünə niyə "kölgə hökuməti" yaratmaq istəsin ki? Əgər belə bir istək olubsa, demək, bu istəyin reallığa çevrilməsini sahibkarlardan alınan xərac qarşılaya bilməz, burada artıq daha böyük maliyyəyə, gücə, bəlkə də dövlətə ehtiyac olur. Eldar Mahmudov kimi hakimiyyətin "içini-çölünü" bilən generalın belə bir istəyə düşməsi səbəbindən qəzəbə gəlməsi necə, realdırmı?

Sabiq nazirə bağlı olduğu deyilən deputatların sıyahısı çox ilgincdir. Çingiz Əsədullayev (həm də sabiq nazirin qudasıdır), Malik Həsənov, Rüfət Quliyev, Əsabil Qasımov, Hacı Salayev, Rafael Cəbrayılov... Yəni hamısı biznesmen-deputatlar, oliqarxlara bağlı iş adamlarıdır. Bəs Malik Həsənov? Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənovun qardaşının sabiq MTN şefinin siyahısında olması Eldar Mahmudovun "kölgə hökumətinə" xəbərlərə diqqəti artırır. Son günlər belə xəbərlər var ki, MTN-də baş verənlərdən sonra Kərəm Həsənov və onun özünə də bağlı iş adamları ciddi təlaşdadır... Mediada növbəti hədəf kimi məhz K.Həsənovun adı hallanır. Fərhad Əliyevin "narıncı inqilab"ında mövqeləri möhkəmlənən komitə sədri bu dəfə "yana bilər". Təkcə K.Həsənovmu?

Baş verən proseslər onu göstərir ki, daxildə ən vacib bir strukturda baş verənlərə o qədər təcili müdaxilə zəruri olub ki, seçkidən sonraya saxlanılmayıb və hədəfdəkilər üçün gözlənilməz olub. Məqsəd təkcə MTN zabitlərinin həbsə göndərilməsi olsaydı - bəlkə də heç əsas məqsəd də bu deyil - bunu həmişə və seçkidən sonra da bu qədər səs-küy doğurmadan etmək olardı. Amma hakimiyyət daxilində böyük və güclənmiş bir klanı ("hökumət") çökdürməyi seçkidən əvvəl başlayıb və onun dağıntıları altında daha çox "böyük başlar" qalacaq...

**Hər şey bəlkə də hələ indi başlayır...**

❑ **"Yeni Müsavat"**



# Kremldən Bakıya yeni Qarabağ şantajı - "B planı" işə salınır?

## Cənubi Osetiyanın Rusiya tərkibinə daxil olmaq istəyi Azərbaycana da mesajdır ki, Moskvanın bölgədəki maraqlarına əngəl yaratmasın; şimal qonşumuz "arxa bağça"dan arxayın olmaq istəyir...

**Bir neçə gün öncə Rusiyanın xəbər lentlərində Azərbaycana da dəxli olan maraqlı bir məlumat keçdi. Orada deyilirdi ki, Gürcüstanın ayrılmaz hissəsi olan Cənubi Osetiyanın "prezidenti" Leonid Tibilov bölgənin Rusiya tərkibinə daxil edilməsi üçün referendum təşəbbüsü ilə çıxış edəcək. Bu haqda o, Rusiya prezidentinin köməkçisi Vladislav Surkovla görüşü zamanı bildirib.**

Onun sözlərinə görə, "Rusiyaya qovuşmaq Cənubi Osetiya xalqının əsrlik arzusudur, hansı ideya ki, gürcü şovinizmi və faşizmi ilə qarşıdurmaya tab gətirib". Sitat: "Bugünkü siyasi reallıq belədir ki, biz öz tarixi seçimimizi edə bilərik. Biz qardaş Rusiya ilə birləşib uzun əsrlər üçün Cənubi Osetiya və onun xalqının təhlükəsizliyi və çiçəklənməsini təmin eləməliyik".

Yad salaq ki, separatçı bölgənin "müstəqilliyi" 2008-ci ildə Rusiya ilə Gürcüstan arasında "5 günlük müharibə"dən sonra Abxaziya ilə birgə Moskva tərəfindən tanınıb və hər iki bölgə faktiki, şimal qonşumuz tərəfindən ilhaq edilib. Ardınca isə güclü şəkildə hərbiləşdirilib - Rusiya orada hərbi bazalar qurub, əraziyə ən müasir silahlar və döyüş sistemləri gətirib.

Tibilovun təşəbbüsü şəksiz ki, yerdən ortaya çıxmayıb və SSRİ-ni hansısa qiyafədə bərpa eləmək istəyi ilə alışıb-yaşayan Kreml rəhbərliyinin yeni təhlükəli planlarından xəbər verir. Doğrudur, prezident Putinin mətbuat katibi Dmitri Peskov Cənubi Osetiya ilə bağlı belə bir planın olmadığını söyləyib və vurğulayıb ki, Rusiya Cənubi Osetiyanı müstəqil dövlət kimi tanıyır. Ancaq ilk baxışda siyasi təvazökarlıq təəssüratı bağışlayan bu açıqlama yalnız maskalayıcı gedişdir.

Deyilə bilər ki, de-fakto onsuz da Abxaziya və Cənubi Osetiya Rusiyanın tərkib hissəsidir, burada hətta əsas pul vahidi kimi yalnız rubl işləyir. Amma yenə də Tibilovun təşəbbüsünü özfəaliyyət adlandırmaq mümkün deyil. Ən azı, Krım nümunəsi var ortada. Məsələyə bölgədə və onun ətrafında gedən proseslər fonunda, geniş kontekstdə baxanda isə daha maraqlı ehtimallar ortaya çıxır.

Məsələn, bəlli olur ki, bununla Moskva əslində postsovet məkanı ərazisində Gürcüstan kimi bənzər problemləri olan digər ölkələri də hədəf götürüb, onları da təhdid altında saxlamaq niyyəti güdür. Ərazisində Dağlıq Qarabağ konfliktinin olduğu, "bloklara qoşulmayan" Azərbaycan isə o sırada sözsüz ki, öndə gəlir.

Söhbət heç də Cənubi Osetiyadakı Rusiya işğalçı qüvvələrin bu ərazidən keçən Bakı-Supsa neft kəmərinə yaratdığı təhlükədən getmir. Bu təhlükə öz yerindədir və hələ ki, aradan qalxmayıb. Məsələ ondadır ki, Ukrayna böhranı səbəbindən Rusiya-ABŞ qarşıdurmasının arealı genişləndikcə Moskva "arxa bağça" saydığı bölgələrdən, o cümlədən Cənubi Qafqaz sarıdan əmin-arxayın olmaq istəyir.

Arxayın olmağın yollarından biri isə Azərbaycan, Gürcüstan kimi "ipə-sapa" yatmayan ölkələri vaxtaşırı gərginlik altında saxlamaq, onları şantaj eləməkdir. Xəzərdən İŞİD mövqelərinə qanadlı raketləri atılması həm də bu hədəfə hesablanmışdı. Ayrı sözlə, separatçı rejim başçısının təşəbbüsü rəsmi Bakıya da mesajdır ki, əgər o, Moskvanın maraqlarına zidd hansısa addımlar atsa və Qərblə hansısa anlaşma içində yer alsa, ələlxüsus da regionda Rusiya hərbi mövcudluğuna əngəllər yaratsa, onda Dağlıq Qarabağda da analoji "təşəbbüslər" səslənə bilər.

Yəni sırf siyasi şantaj məsələsi. Ona da şübhə yox ki, Rusiyanın əlində maşa olan Ermənistan belə bir planı isti qarşılamasa da, müqavimət göstərmək gücündə də olmayacaq. Unutmaq lazım deyil ki, Krımdan fərqli olaraq, Cənubi Osetiyanın və Dağlıq Qarabağın əsas əhalisi qeyri-ruslardır. Demək, əhalinin etnik tərkibi Rusiya üçün problem olmayacaq. Moskva istəsə, cənubi osetinləri də, Qarabağ ermənilərini də bir gündə Rusiya vətəndaşı edib öz təbəələrinə çevirər - ortada təcrübə var.

*****

Son baş verənlər bir daha Rusiya ilə həmsərhəd MDB ölkələrinin nə dərəcədə böyük təhlükə ilə qarşı-qarşıya olduğunu üzə çıxarır. Moskva Ukrayna və Suriyada tam fiaskoya uğrasa, böyük ehtimalla o, Cənubi Qafqazla bağlı "B və C planları"nı işə salacaq.

❑ **Siyasət şöbəsi**

# MDB ölkələri üçün İŞİD təhlükəsi...



## **Qabil Hüseynli:** "Rusiya Suriyada İŞİD-i və müxtəlif radikal dini qruplaşmaları bombardman etməklə onların səmtini, hədəflərini dəyişdirib"

**İŞİD-in Azərbaycanın dəniz sərhədlərindəki postsovet respublikalarına girməyə cəhd etdiyi barədə xəbərlər yayılmaqdadır. Terror qruplaşmasının Türkmənistana girməsi xəbəri yayılıb, Sərhəddə qanlı döyüşlərin getdiyi, Azərbaycanın da daxil olduğu bölgə ətrafında proseslərin getdikcə bir qədər gərginləşdiyi yayılan xəbərlər sırasındadır.**

Bildirilir ki, böyük güclərin başının Suriyaya, Yaxın Şərqə, İŞİD məsələsinə qarışdığı vaxtda İŞİD də öz təsirini daha geniş ərazilərə yaymaq taktikasına təcili düzəlişlər eləməkdədir. Hədəfdə isə artıq həm də terror qruplaşmasının güclü olduğu Əfqanıstanla sərhəd müsəlman postsovet ölkələridir. Bu yöndə ilk ciddi cəhd, "sınaq yoxlanışı" ötən ay artıq baş verib. Tacikistanda müdafiə nazirinin müavini Abdulhalim Nazarzodanın başçılıq elədiyi qiyam əslində bunun xəbərçisi idi.

Təhlilçilərin fikrincə, İŞİD başda olmaqla, terror qruplaşmaları belə bir taktika ilə ən əvvəl böhran arealını böyütmək, böyük güclərin, o sırada Rusiyanın diqqətini Yaxın Şərqdən, Suriya və İraqdan yayındırmaq niyyəti güdür.

**Politoloq Qabil Hüseynli** bu barədə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Rusiya Suriyada İŞİD-i və müxtəlif radikal dini qruplaşmaları bombardman etməklə onların səmtini, hədəflərini dəyişdirib. Səudiyyə Ərəbistanının 50 din xadiminin cihad elan etməsi, Əl-Nusra qruplaşmasının, İŞİD-in, Talibanın Rusiyaya cihad elan etməsi çox təhlükəli tendensiyadır. Bu gün Türkmənistan, Qazaxıstan və Tacikistan ərazilərində hələ ki məşq edən qüvvələr İŞİD-ə biət eləyən talibançı qüvvələrdir. Talibançılar Rusiyaya xəbərdarlıq etmək üçün öncə Əfqanıstanın paytaxtı Kabildəki Rusiya səfirliyinin qarşısında kamikadze özünü partlatdı. İndi isə Taliban elan edir ki, onun beş min nəfərdən artıq silahlı dəstəsi İŞİD-in təbeçiliyinə girir və bundan sonra əsas məqsədləri Rusiyaya qarşı mübarizədir. Rusiyaya qarşı mübarizə üçün isə onlar öncə Rusiyanın cənubundakı postsovet respublikalarını təhdid etməlidirlər: "Bu təhdid artıq başlayıb. Türkmənistan sərhədində bu ölkənin qoşunları ilə atışma ilk siqnaldır. Tacikistan ətrafında da vəziyyət gərginləşə bilər. Ancaq İŞİD və Taliban üçün ən yaxın yol kimi Türkmənistan və Qırğızıstandır. Düzdür, Qırğızıstanla Əfqanıstanın sərhədi yoxdur. Amma terrorçular bura da sıza bilərlər. Hesab edirəm ki, postsovet respublikalarına hücum barədə İŞİD-in yaydıqları daha çox təbliğat xarakteri daşıyır. İŞİD-in elə bir gücü yoxdur ki, bu ölkələrə böyük miqyaslı hücum etsin və eyni vaxtda 3-4 respublikada hərbi əməliyyatlar həyata keçirsin. Lakin bu o demək deyil ki, İŞİD heç bir zaman bu bölgələrə gələ bilməz. İŞİD-in Şimali Qafqaza gəlmək ehtimalı daha böyükdür. Gürcüstanın Pankisi dərəsindəki çeçenlərin hamısı İŞİD-ə biət edən qüvvələrdir. Çeçenistanın bəzi bölgələrindəki çeçenlər də İŞİD-ə yaxın qüvvələrdir. Bunlar çox asanlıqla Şimali Qafqazda hərbi əməliyyatlara başlaya bilərlər. Gürcüstan çeçenlərin Şimali Qafqaza doğru yürüşünə elə də müqavimət göstərmir. Rusiya Gürcüstan ərazilərini işğal etdiyindən Rusiyaya qarşı hər hansı hərəkətə onlar mane olmurlar, əksinə, dəstək verirlər. Rusiyaya bax bu ərazidən İŞİD-in sızması daha çox inandırıcıdır. Şimali Qafqaz, eləcə də Gürcüstanın əraziləri İŞİD-çilər üçün ən münasib bölgədir. Bu isə regionun aparıcı ölkələrindən olan Azərbaycan üçün də istər-istəməz təhlükə deməkdir".

**Politoloqun sözlərinə görə, Vladimir Putin həyəcan təbili çalarkən keçmiş postsovet respublikalarını ümumi bir cəbhə təşkil etməyə çağırmaqla əslində özünə qarşı olan bir təhlükəni neytrallaşdırmağa çalışır:** "Son günlər Suriya ərazisində rusların fəallığının azalması belə bir fikir yaradıb ki, Rusiya ola bilsin Qərblə Başar Əsəd barəsində müəyyən kompromisə gedib. Başar Əsədin 21 oktyabrda Moskvaya getməsini də bununla əlaqədar saymaq mümkündür. Ola bilsin ki, Suriyada müvəqqəti keçid hökumətinin formalaşdırılması üçün Rusiya ilə Qərb arasında razılaşmalar meydana çıxıb. Rusiya artıq görür ki, Suriyada hərbi əməliyyatları genişləndirdikcə, özünün sərhədləri üçün təhlükələr yaranmağa başlayır. Artıq İŞİD-çilər Allahın adına and içməklə əmin ediblər ki, onlar Rusiyanı qəlbindən vuracaqlar. Ona görə də Rusiya MDB ölkələrini İŞİD-lə birgə mübarizəyə çağırmaqla bərabər, mütləq Qərblə də dil tapmalıdır. İŞİD-in postsovet respublikalarında hərbi əməliyyatlara başlamasının qarşısını almaq üçün yerüstü əməliyyatlara başlamalıdırlar".

❑ **E.SEYİDAĞA**

**Bu günlərdə nəqliyyat naziri Ziya Məmmədovun müalicə almaq üçün İsveçrəyə üz tutması barədə məlumat vermişdik. O da məlumdur ki, ölkədə yüksək vəzifəli məmurlar - nazirlər və onların müavinləri səhhətlərində kiçik narahatçılıq yaranan kimi Avropanın klinikalarına, məşhur xəstəxanalara, tanınmış həkimlərinə müraciət edib səhhətlərini onlara etibar edirlər. Bu, artıq ənənə halını alıb. Baxmayaraq ki, hakimiyyət nümayəndələri tez-tez əzbərlədikləri bir tezisi təkrarlayırlar, guya "Avropa dağılır". Amma sağlamlıqlarını da Avropa səhiyyəsinə etibar edirlər.**

# Nazirlər Avropa klinikalarında, bəs müxalifətçilər harada müalicə alır?

## Pənah Hüseyn: "Müxalifətçiləri Allah özü qoruyur"



Nazirlər Avropa klinikalarında, bəs müxalifətçilər harada müalicə alır?

"Yeni Müsavat"ın əməkdaşı bu barədə kiçik sorğu keçirib.

**Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn Avropada müalicənin əlçatmaz olduğunu deyib:** "Ölkənin səhiyyə sistemi kifayət qədər tələblərə cavab verməlidir ki, nazirlər də yerli səhiyyəyə etibar edə bilsin. Hər il çoxlu sayda vətəndaşımız müalicə və müayinə üçün Avropa, o cümlədən Türkiyə və İran klinikalarına müraciət edir. Lakin artıq həmin qonşu ölkələrdə belə qiymətlər demək olar ki, 3-4 dəfə bahalaşıb. Beləliklə, bizim üçün Avropada müalicə və ya müayinə əlçatan bir şey deyil. Göydə Allahın, yerdə Bakı həkimlərinin ümidinə qalmışıq. Müxalifətçiləri Allah özü qoruyur".

**KXCP sədrinin müavini Xəzər Teyyublu da Avropada müalicə almaq iqtidarında olmadığını deyib:** "Mənim xaricdə müalicə almaq imkanım yoxdur. Səhhətimizdə hər hansı problem yaşananda yalnız yerli klinikalara müraciət edirik. Hazırda səhiyyə ocaqlarımızda müasir tibbi aparatlar olsa da, özəl klinikalarda qiymətlər çox bahadır, həmçinin vətəndaşların tibbi sığorta məsələsi həll olunmamış qalır. Buna görə də əhali qonşu ölkələrə, Təbrizə və Gürcüstana axışır. Bir sözlə, səhiyyə sahəsində yeni islahatlar aparılmasına böyük ehtiyac var".

**Müsavat Partiyası İcra Aparatının rəhbəri Gülağa Aslanlı bildirdi ki, ötən il müayinə üçün yerli həkimlərə müraciət edib:** "Mənə bildirildi ki, təcili açıq ürək əməliyyatına girməliyəm. Bununla bağlı daxilimdə bir şübhə olduğu üçün Türkiyə həkimlərinə də müraciət etdim. Onlar bildirdilər ki, səhhətimdə heç bir problem yoxdur, o da ola ürək əməliyyatı keçirim. Bu səbəblər insanları xaricdə müayinə və müalicə almağa vadar edir. Buna görə məmurlar hətta asqıranda, badamcıqlarının əməliyyat olunması üçün belə xaricə müraciət edir, yerli həkimlərə öz səhhətlərini həvalə etmirlər".

**ADP sədri Sərdar Cəlaloğlu** da Avropada müalicə almaq üçün heç bir imkana malik olmadığını bildirdi.

**"Yeni Müsavat" qəzetinin baş redaktorunun birinci müavini Azər Ayxan aylıq büdcəsinin ildə bir dəfə olsun belə Avropa klinikalarında müayinə olunmasına yetmədiyini deyib:** "Hazırda xəstəyəm, ağır soyuqdəymədən əziyyət çəkirəm. Lakin gördüyünüz kimi, iş başındayam. Bakı apteklərindən öskürəyə və soyuqdəyməyə qarşı aldığım dərmanlarla özümü müalicə edib ayaq üstə dayanmağa çalışıram. Səhhətimizdə bu cür problemlər yaşananda yerli səhiyyəmizin imkanlarından istifadə etməli oluruq. Əlbəttə, çox istərdik ki, heç olmasa ildə bir dəfə Avropa klinikalarına müraciət edib yeni, müasir tibbin verdiyi imkanlardan yararlanıb lazımi müayindən keçək. Lakin maddi imkanlarımız, büdcəmiz buna da yetmir. Halbuki məmurlarımızın yanından kiçik yel keçən kimi Avropa ölkələrinə üz tuturlar".

**Tanınmış köşə yazarı Azər Rəşidoğlu da məsələyə öz münasibətini bildirib:** "Bu məsələdə belə təsnifat aparmaq, zənnimcə, yanlışdır. Baxır jurnalistə və müxalifətçiyə. Sıravi jurnalist və yaxud müxalifətçi heç əyalət xəstəxanasına da gedə bilmir. Lakin müxalifət liderlərinin bir qismi və media kapitanlarının da bir qismi elə Ziya Məmmədov getdiyi yerə gedir. Özəl xəstəxanaya getmək üçün sıravi jurnalist və ya müxalifətçi bankdan kredit götürməlidir, əgər kredit verən olsa.

Məmurların, eyni zamanda dolanışığı onlardan geri qalmayan bəzi lider və kapitanların bank kreditinə ehtiyacı yoxdur. Sıravilər zəncirdən başqa heç nəyi olmayan lümpenlərdir, onların əməyini istismar edənlər isə burjuaziyadır".

❑ **Xalidə GƏRAY**



# Seçicilərdən Asim Mollazadəyə böyük dəstək

## "Biz yenə də sizə səs verəcəyik"

**Demokratik İslahatlar Partiyasının sədri, 1 noyabr 2015-ci ildə Azərbaycan Respublikası Milli Məclisinə keçiriləк seçkilərdə 22 saylı Nəsimi ikinci seçki dairəsindən namizdliyi irəli sürülmüş Asim Mollazadə seçki kampaniyası çərçivəsində seçicilərlə növbəti görüşünü keçirib.**

"Bakı Tikiş Evi"nin həyətində keçirilən görüşdə millət vəkili öz seçicilərinə ötən beş il ərzində parlament fəaliyyəti barədə hesabat verib.

Seçki platformasındakı prioritet məsələlərə toxunan Asim Mollazadə dövlət başçısının sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi ilə bağlı son fərmanını təqdir edib. Prezidentin sahibkarlara lisenziyaların verilməsini "ASAN xidmət"ə həvalə etməsini, sahibkarların iki il ərzində yoxlamalardan azad ediləcəyini bu sahənin inkişafı üçün ciddi töhfə kimi qiymətləndirib.

Seçicilər Asim Mollazadəyə deputat seçiləcəyi təqdirdə Milli Məclisdə son dövrlərdə şəhər nəqliyyatında yaranmış problemlər, qadınların pensiya yaşının aşağı salınması, işsizliklə mübarizə, vətəndaşların tibbi sığortası ilə bağlı məsələləri qaldırmağı tövsiyə ediblər.

Nəsimi seçiciləri onların problemlərinə hər zaman diqqətlə yanaşdığına, rayondakı bir sıra problemlərin həlli, ölkədə qadın və gənclərin inkişafı, təhsildə irəliləyişlərin əldə olunması istiqamətində gördüyü işlərə görə Asim Mollazadəyə təşəkkür ediblər.

"Siz hər zaman bizim problemlərimizə diqqətlə yanaşmısız və parlamentdə sözün həqiqi mənasında bizim səsimiz olmusuz. Sizin səyləriniz sayəsində Nəsimi rayonunda çox sayda problemlərin həllinə nail olunub. Və inanırıq ki, növbəti beş ildə də bizi hər zamankı kimi ləyaqətlə təmsil edəcəksiz. Biz yenə də sizə səs verəcəyik!" - deyə Nəsimi seçiciləri bildiriblər.

❑ **Vüqar MURAD**

# Əsəd və Putin Kremldə saatlarını tutuşdurdular

## Suriya tiranının Rusiyaya gecə səfərinin pərdəarxası; Putin Ərdoğanla səfərin yekununu müzakirə elədi; Türkiyə Əsədə 6 ay möhlət verdi...



**Oktyabrın 20-si gecəsi Suriya prezidenti Bəşər Əsəd Rusiyaya qəfil səfər edib. Səfər çərçivəsində o, prezident Vladimir Putinlə görüşüb və dərhal da Suriyaya geri dönüb. Qeyd edək ki, bu, Əsədin Suriyada qanlı vətəndaş müharibəsinin başladığı 2011-ci ildən sonra xaricə ilk səfəridir.**

Görüşlə bağlı Putinin mətbuat katibi Dmitri Peskov bildirib ki, Əsəd və Kreml başçısı Rusiyanın Suriyada hərbi əməliyyatlarının davam etdirilməsi məsələsi və Suriya ordusuna Moskvanın yardımını müzakirə ediblər. Geniş tərkibdə keçirilən görüşdə Rusiya hakimiyyətinin yüksək vəzifəli nümayəndələri də iştirak edib. "Danışıqlar kifayət qədər uzun oldu, mövzular isə hamıya bəllidir", - deyə Kreml sözçüsü qeyd edib.

Qlobal terror təhlükəsindən danışan Rusiya lideri keçmiş SSRİ məkanı ölkələrindən 4 minə yaxın adamın İŞİD sıralarında vuruşduğunu deyib. "Təəssüf ki, keçmiş Sovet İttifaqı ölkələrindən ən azı 4 min adam Suriya ərazisində əlində silah hökumət qüvvələrinə qarşı vuruşur. Bu, bizi narahat edir. Əlbəttə ki, biz artıq hərbi təcrübə qazanmış və ideoloji hazırlıq keçmiş o adamların Rusiya ərazisinə gəlməsinə imkan verə bilmərik" - vurğulayıb Vladimir Putin.

Rusiyanın Suriyada bombardmanlara başlamasının 21-cü gününə təsadüf edən bu səfərlə bağlı məlum səbəbdən ətraflı bilgi verilməsə də aydındır ki, diqqət mərkəzində Rusiyanın Suriyaya hərbi müdaxiləsindən sonra yaranmış durumun birgə qiymətləndirilməsi və atılacaq sonrakı addımlar olub. Hansı addımlar?

Bunlar yəqin ki, az sonra bilinəcək. İstisna deyil ki, Suriya prezidenti Putindən hava zərbələrinin ardınca quruda da hərbi dəstək istəsin. Hər halda Rusiyanın üç həftəlik aviazərbələrinin Əsədə sadiq qüvvələrin irəliləməsinə ciddi köməyi dəyməyib - bir neçə simvolik uğurlar istisna olmaqla.

Lakin Rusiya, konkret olaraq, Putin bir neçə dəfə bəyan edib ki, Moskva Suriyaya quru qoşunları göndərməyə hazırlaşmır. Çünki ehtiyat edir ki, bu halda canlı və başqa itkiləri böyük olacaq, üstəlik də "Əfqanıstan sindromu" təkrarlana bilər ki, bu da onun Suriya böhranından istifadə edərək böyük güc imicini bərpa eləmək marağına sarsıdıcı zərbə olar.

Rəsmi Kreml sözsüz ki, ən əvvəl bu hədəfi götürüb və Suriya böhranının siyasi vasitələrlə həllində ABŞ və Türkiyə ilə bərabər oyunçular kimi iştiraka can atır. ABŞ və Türkiyə isə Kremlin və İranın müttəfiqi olan Bəşər Əsədi post-müharibə Suriyasının hakimiyyətində görmür. Onunla müvəqqəti danışıqları mümkün sayır, lakin ölkənin gələcəyində ona yer ayırmırlar.

Yeri gəlmişkən, bu arada rəsmi Ankara Suriyada hakimiyyətin təhvil verilməsi planına dəstək verməyə hazır olduğunu bəyan edib. Həmin plana görə, Əsəd öz postunda simvolik olaraq daha 6 ay qalacaq. Bu barədə "Reuters" agentliyi Türkiyə hökumətindəki iki yüksək çinli məmura istinadən xəbər yayıb.

Onlardan birinin sözlərinə görə, hazırda plan üzərində iş davam edir. Bu plana əsasən, Bəşər Əsəd hakimiyyətdən çəkilməlidir. **"Biz bu məsələnin ABŞ və digər müttəfiq ölkələrlə müzakirəsində müəyyən irəliləyişə müvəffəq olmuşuq. Biz dəqiq bilmirik 6 aylıq mərhələ nə vaxt başlayacaq, ancaq düşünürük ki, bu, tezliklə baş verəcək"** - qeyd edib mənbə.

Bəzi ehtimallara görə, Əsədin gözlənilməz Moskva səfəri bu planla da bağlı ola bilər. Belə bir versiyanı gücləndirən amillərdən biri artıq deyildi - Rusiyanın üç həftədir davam edən bombardmanları nə ona, nə də Dəməşqə umulan ildırım sürətli siyasi və hərbi dividenti gətirməyib.

İkinci amil odur ki, Rusiyanı Bəşər Əsədin taleyindən öncə Suriyada, Yaxın Şərqdə möhkəmlənmək, regionun aparıcı oyunçularından biri statusunu qazanmaq maraqlandırır. Əksər analitiklərə görə, Putin bu yolda Əsədi asanca "xərcləyə" də bilər.

Maraqlıdır ki, Bəşər Əsədin qəfil Moskva səfərindən dərhal sonra Türkiyə və Rusiya prezidentləri - Rəcəb Tayyib Ərdoğan və Vladimir Putin telefonda Əsədin Moskva səfərinin yekunlarını müzakirə ediblər. Məlumatlına görə, bu barədə Türkiyə telekanalları Ərdoğan administrasiyasındakı mənbəyə istinadən xəbər yayıb. Söhbət zamanı Türkiyə lideri Suriyadakı hərbi əməliyyatların genişlənməsi səbəbindən qaçqın axınının güclənə biləcəyindən narahatlıq ifadə edib. Ərdoğan Putinin diqqətini həmçinin, qadağan edilmiş terrorçu PKK ilə kürdlərin Suriyadakı partiyası (PYD) arasında əlaqələrə cəlb edib. İki ölkənin rəhbərləri bu məsələləri daha ətraflı şəkildə G 20-nin gələn ay Antalyada keçiriləcək sammiti çərçivəsində müzakirə eləmək barədə razılığa gəliblər.

❑ **Siyasət şöbəsi**

**Azərbaycan prezidenti İlham Əliyev özünün son çıxışlarının birində 2016-cı ilin Azərbaycan iqtisadiyyatı üçün çətin il olacağının anonsunu verdi. Məsələ ilə bağlı iqtisadçı ekspertlər də bildirirlər ki, qarşıdan gələn ilə hazır olmaq üçün anti-böhran tədbirləri həyata keçirilməlidir.**

# Müxalifətin böhranlı dövrlə bağlı öz planı var

## Düşərgə yetkililəri ölkənin sarsıntılı dönəmdən çıxmasının yolunu göstərdilər...

Bəs hakimiyyət iddiasında olan ölkə müxalifətinin antiböhran proqramları varmı?

**Məsələ ilə bağlı Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı** qəzetimizə açıqlamasında əvvəlcə bildirdi ki, ölkə başçısının bu haqda fikirlərini onlar daha öncələr söyləyiblər: "Ölkədə vəziyyətin günü-gündən pisləşdiyini biz neçə vaxtdır deyirik. Çox qəribədir ki, Azərbaycan xalqı bu həqiqəti sanki ölkə başçısının çıxışından sonra dərk edib. Belə deyil. Xalq, müxalifət bu məsələni uzun zamandır gündəmə gətirib və məsələ ilə bağlı fikirlər bildirilir. Köklü islahatlar aparılmalıdır. Ölkənin hazırkı iqtidarı isə fikrimcə, islahatlar aparmaq istəyindən çox uzaqdır. Hökumət özü islahatlar aparıb və korrupsiyanın, monopoliyanın ləğvinə çalışmalıdır. Əgər onlar bunu düşünsəydilər, çox gözəl olardı. Ancaq onlar özləri bunu yaratdıqları üçün hesab edirəm ki, ləğvinə də çalışmayacaqlar".

**Klassik Xalq Cəbhəsi Partiyasının (KXCP) sədr müavini Xəzər Teyyublu partiyanın böhranla bağlı xüsusi proqramlarının olduğunu söylədi:** "Biz də Azərbaycanda yaşayırıq. Bu məsələlərlə bağlı təbii ki, biz də çox narahatlıq keçiririk. Hər bir siyasi təşkilatın iqtisadi proqramı var. Qısası, hadisələri araşdırırıq və müəyyən təkliflərlə çıxış edə bilərik".

**Azərbaycan Xalq Partiyasının (AXP) sədri Pənah Hüseyn isə bildirdi ki, ölkədə təcili şəkildə antiböhran proqramının hazırlanması, müzakirəsi və qəbul olunması vacibdir. O,** aşağıdakı təklifləri irəli sürü: "İqtisadi, o cümlədən maliyyə-bank istiqamətinin, xarici ticarət dövriyyəsinin qorunub saxlanması, ölkəyə valyuta axınının stabilliyinin təmin edilməsi, qiymət artımının qarşısının alınması, iş yerlərinin maksimum qorunub saxlanması və sair bu kimi ciddi tədbirlərin görülməsi vacibdir. "Azadlıq-2105" blokunun seçki platformasında da bu öz əksini tapıb. Ölkənin, ümumiyyətlə, sosial yardımla bağlı konsepsiyasına ciddi dəyişikliklər edilməlidir. Mənə elə gəlir ki, bu məsələlər lazımi qaydada həyata keçirilsə, dediyimiz məsələlərdə siyasi iradə öz əksini tapsa, o cümlədən müxalifət və iqtidar arasında müəyyən təmas nöqtələrinin tapılması mümkün olarsa, biz ölkənin sarsıntılı, böhranlı dövrdən keçməsinə nail ola bilərik".



**ADP sədri Sərdar Cəlaloğluna görə, artıq iqtisadi böhrandan danışmağın mənası yoxdur:** "Çünki bu böhran tam yetişib. Növbəti il insanlar bunu çox aydın şəkildə hiss edəcəklər. Bu gün şəhərə çıxırsan, hər iki mağazadan biri bağlıdır. Bu da problemin ciddiliyini göstərir. Bizim bu durumla bağlı kifayət qədər rasional təkliflərimiz var. Ancaq hakimiyyət qulaqlarını bağlayıb, özündən başqa heç kimi ağıllı hesab etmir. Neçə ildir bu siyasət davam edir. Faktiki olaraq böyük sürətlə uçuruma doğru gedirlər. Əlbəttə, qeyd etdiyim kimi, bizim partiyanın da antiböhran tədbirləri mövcuddur".

❑ Əli RAİS

# "Bank Technique" müflisdir, ancaq elan edilmir...

## Ekspertlər bildirirlər ki, bankın problemli kreditləri çoxdur, əhalinin əmanətlərini qaytara bilmir, Mərkəzi Bank isə müəmmalı şəkildə seyrçidir...

**Ölkənin bank sistemində ciddi, hətta bir qədər anlaşılmaz hadisələr baş verməkdədir. Hadisələrin görünən tərəflərindən biri bank rəhbərliyindəki şəxslərin işdən çıxmasıdır. Artıq "Bank Technique" ASC-nin Müşahidə Şurasının sədri Rövşən İsmayılov da tutduğu vəzifəni tərk edib. APA-nın xəbərinə görə, sədr öz xahişi ilə tutduğu vəzifədən uzaqlaşıb.**




Belə ki, oktyabrın 16-da keçirilən bankın səhmdarlarının yığıncağında R.İsmayılovun işdən çıxması ilə bağlı yazdığı ərizəyə baxılıb və sədrin ərizəsi qəbul olunub. Xəbəri bankdan təsdiqləyiblər.

Ekspertlər isə bildirirlər ki, "Bank Technique" böyük olmasına baxmayaraq, həmişə çox bərbad idarə edilən bank olub. Yəni elə Cahangir Hacıyevin idarəçiliyinə keçməzdən əvvəl də bankda idarəetmə yaxşı şəkildə qurulmayıb. Həmçinin bildirilir ki, bank Cahangir Hacıyevin vaxtında lap pis vəziyyətə düşüb.

Ekspertlər faktla bağlı bədbin ehtimallar da səsləndirirlər. Onların fikrincə, görünən odur ki, bu bankın problemli kreditləri çoxdur və böyük ehtimalla bank müflisdir. Yəni Cahangir Hacıyev hərbə-zorba yollarla bankı bir təhər üzdə saxlayırdı. Qanunsuz olaraq kiminsə əmlakını alıb banka verirdi və sair işlər həyata keçirirdi. Ancaq o, vəzifəsini itirəndən sonra bu, mümkün olmadı. Bundan sonra da bankın iç üzü açıldı.

Ekspertlərə görə, natəmiz və qeyri-peşəkar idarəetmə nəticəsində bankın problemli krediti elə həddədir ki, pulu çatışmır və əhalinin əmanətlərini qaytara bilmir. Mərkəzi Bank ya ona kredit verməlidir ki, borclarını ödəsin, ya da lisenziyasını ləğv etməlidir. Lakin Mərkəzi Bank birincini etmir ki, verdiyi kredit batmasın. İkincini isə ona görə etmir ki, bank çox iridir və bank sistemi üçün ağır zərbə ola bilər. Həm də bu halda əmanətçilər əmanətini Əmanətlərin Sığortlanması Fondundan tələb edəcək. Bu fondu isə elə Mərkəzi Bank idarə edir, özü də qeyri-şəffaf şəkildə. Mərkəzi Bank da istəmir ki, bu bankın əmanətçiləri həmin fondun vəsaitlərini alsın. Ekspertlərə görə, Mərkəzi Bankın ya heyfi gəlir, ya da fondun özünün müflis olmasından qorxur. Çünki yəqin Mərkəzi Bank da fondu səmərəli idarə etmir. Ortada qalan isə əmanətçilərdir. Onların pulu qayıtmır.

Ekspertlər həmçinin tövsiyə edirlər ki, əmanətçilər məhkəmə yolu ilə bankın müflis olmasını tələb etsinlər. Bu halda fond əmanətləri qaytarmalı olacaq.

❑ Röya RƏFİYEVA

# Gürcüstana "Zibil atma"! Bəs Azərbaycana..?



Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Tiflisdən geri döndüyüm bir neçə saatdır. Qonşu ölkənin paytaxtına gedən əksər azərbaycanlı kimi, mən də müqayisələr üzərində baş sındırıram. 100 il əvvəl Mirzə Cəlil qonşularımızla bizimkiləri müqayisə edirdi, pəjmürdə olurdu, indi də bizim nəsil eyni hissləri keçirir. Sanki qonşuya baxıb köks ötürmək, günboyunca bikef dolaşmaq alnımıza yazılıb...**

Təkcə bizim Bulvar Meydanı tərəfdə işığı bərq vuran, dənizi də gündüz rənginə boyayan lampalar elə Tiflisin işıqlandırılmasına bəs edər. Hansı ki, gürcülər gözünü Azərbaycanın neftinə, qazına, ölkə içindən keçən kəmərlərindən, yük maşınlarında gələn gəlirlərə dikib, bizim var-dövlətimizə həsəd aparırlar. Hansı ki, biz çox məsələlərdə önə çıxa bilərdik. Ancaq...

Tiflis kasıb şəhərdir, bunu gürcülərin paytaxtına gedən əksəriyyət bilir, Amerika kəşf eləmirəm. Bakının təkcə qış bulvarına, prospekt kənarlarına düzülmüş mərmərlər ölçüyə-biçiyə gəlməz, Gürcüstan paytaxtına əksər döşəmələr sovet dövründən qalma köhnə-külüşdür. Dəmiryol vağzalında bir yeraltı keçid var, iti bağlasan, orda qalmaz. Paytaxtın mərkəzindən keçən Şota Rustaveli küçəsindəki yeraltı keçidlər də eləcə: köhnə döşəmələr, yazılarla dolu divarlar, qaranlıq... Heç Tiflisin uzun tuneli də Bakıdakı zər-zibalı, işıqları göz qamaşdıran keçidlərlə müqayisəyə gəlməz...

Ancaq bütün bunlara rəğmən gürcü cəmiyyəti aqressiv deyil, küçədə biri digərinin ayağını basanda qayıdıb başına çımxırmır, pozitiv enerji buralara hakim kəsilib. Nədəndir? Məşhur bir deyimi xatırlasaq, axı, hər ikimiz qafqazlıyıq. Azərbaycan insanı işğaldan əziyyət çəkirsə, Gürcüstanın iki vilayətini Rusiya "dövlət" elan edib. Məntiqlə, bizim vəziyyətimiz daha yaxşı, əhvalımız daha duru olmalı.

Azərbaycan manatı devalvasiyaya uğrayıbsa da, gürcü larisi də eyni kökdədir, hələ bir az da pis. Ancaq bu da gürcülərin ovqatını təlx eləmir. Gürcüstanda əmək haqqı, təqaüdlər elə də yüksək deyil, lakin yenə də ürəkləri vərəmləmir kasıblıqdan.

Tiflisin mərkəzi küçələri boyu sutkanın istənilən saatında musiqi sədası eşidərsən. Gecənin yarısına qədər qaldığımız otelin qarşısında səkidə oturub səsgücləndirici qurğularla sakinləri canlı musiqiyə qonaq edən gənclərə kimsə "yığışdır bu zir-zibilini, əkil burdan" demirdi. Bir az o tərəfə gedirsən, adamı başqa "ansambl" qarşılayır, birisi gitara əlində, digəri yardıma çağırış posteri qaldırıb, üçüncüsü də üzündə təbəssüm "çeçenka"nı gəlib-gedənin qarşısına uzadır ki, tetridən, laridən qoparsın. Nə şəhər sakinləri, nə qonaqlar bu mənzərədən darılır, nə də pul almayanda həmin gənclərin beyni çönmür.

Tiflis başdan-ayağa yaşıllıqlar şəhəridir. Yol qırağındakı nəhəng ağacları kəsib yerində market açmaq, bina tikmək kimsənin ağlından keçmir, keçsə də, imkan verilməz. Bizdə 50 illik ağacları qırıb yerində göydələnlər tikdilər, sonra da deyirik niyə xərçəng xəstələrinin sayı bu qədər artıb...

Gürcülər deyir onlar stəkana krandan aldıqları dağ suyunu alıb rahat içirlər. Ətrafdakı kanalizasiyaların mənsəbi olan Kür suyundan heç məişətdə də istifadə etmirlər. Biz isə Kür suyundan daha nələr üçün istifadə etmirik, nəticəsi sağlamaz xəstəliklər. Gürcülər heyrətlə "siz doğrudanmı Kür suyundan içirsiniz" soruşurdular...

Bakıdakı zibilliklərlə bağlı vəziyyət bəlli. Gürcüstanda isə durum fərqlidir... Bir faktı yazım: Gürcüstanın qapısında, Qardabani gömrüyündə qatarımız xeyli ləngidi. Bu zaman bir həmvətənimiz əsəbiləşib siqaret yandırdı, ardınca da kötüyünü kənara tulladı. Nəticədə 80 lari - 40 AZN - cərimə olundu. Gömrükçü Vitali əsəbi halda məntəqənin üzərindəki "Zibil atma" yazılmış lövhəni göstərdi. Siqaret çəkməsəm də, utandım bu mənzərəyə görə. Gürcü hamımıza dərs keçdi...

Haqlı idi. Elanı gürcü, ingilis və azərbaycanca yazmışdılar. Hansı ki, lazım da deyildi, ətraf zibilqabları ilə dolu idi. Gürcüstanda avtomobildən küçəyə bir siqaret qutusu atsan, 120 lari cərimə ödəməli olacaqsan. Ona görə də küçələr təmizdir, bizdəki kimi sellofanlar havada uçmur. Gürcüstanda azad sahibkarlığın olmasından, rüşvətin minimuma endirilməsindən, daha nələrdən çox yazılıb. Dünya reytinqində bizi qabaqlayırlar, çox məsələlərdə bizdən asılı olsalar da... Adam belə vəziyyətdən çox pərt olur. Ancaq "fil boyda" işlər görməyə tələsməyək. Bəlkə əvvəlcə küçələrdən başlayaq? Sadəcə, zibilləməyək... Məncə, hərəmiz öz tökdüyümüz zibili yığışdırsaq, bu ölkəyə demokratiya da gələcək, üzümüz də güləcək...

YENİ MÜSAVAT
N 234 (6262) 22 oktyabr 2015




# Mərkəzi Bank əhalini risk altına qoyur - əmanətlər təhlükədə...

## Ekspertlər bildirirlər ki, devalvasiyadan sonra Mərkəzi Bank bankların çaldığı havanı oynayır

**Mərkəzi Bankın aktivlərinin təsnifləşdirilməsi ilə bağlı qaydaya dəyişiklik etməsi ekspertlər tərəfindən narahatlıqla qarşılanır. Ekspert Əkrəm Həsənov bildirir ki, Mərkəzi Bankın qaydalarına edilən növbəti dəyişiklik bank sisteminin çox ağır vəziyyətindən xəbər verir. Yəni bankların ehtiyatları azalır və əmanətlər təhlükədədir. Ekspertin sözlərinə görə, oktyabrın 9-da Mərkəzi Bankın "Aktivlərin təsnifləşdirilməsi və mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatların yaradılması Qaydaları"na dəyişikliklər qüvvəyə minib. Dəyişikliklərə əsasən, bundan sonra banklar verdiyi kreditlər üzrə daha az ehtiyat yaradacaq.**

"Belə ki, nəzarət altında olan kreditlər, yəni ödənişi 90 günədək gecikdirilən kreditlər üzrə bundan sonra 5 faiz əvəzinə 1-2 faiz ehtiyat yaradılacaq. Məsələn, tutaq ki, bank cəmi 300 milyon manat kredit verib. Onun 200 milyon manatının qaytarılması borclular tərəfindən 90 günədək gecikdirilir. İndiyədək bank bu halda 10 milyon manat ehtiyat yaratmalı idi. Bundan sonra isə cəmi 2-4 milyon manat ehtiyat yaradacaq",- deyə o qeyd edib.

**Ekspertin sözlərinə görə, digər dəyişiklik də bankların ehtiyatlarının azalmasına səbəb olacaq:** "Belə ki, indiyədək restrukturizasiya olunmuş, yəni məsələn, müddəti uzadılmış və sair kreditlər üçün daha az ehtiyat yaratmaq yalnız o halda mümkün idi ki, kreditin heç olmasa yarısı qaytarılsın və onun ödənişi üzrə daha problem olmasın. Bundan sonra isə aylıq əsasda ödənilən kredit üzrə 6 ay müddətində gecikmə müşahidə olunmadıqda, ehtiyatları azaltmaq mümkün olacaq. Lap istəyir kreditin 99 faizi hələ ödənilməmiş olsun. Məsələn, tutaq ki, bank sahibinə yaxın olan şirkətə 3 il müddətinə 100 milyon kredit verilib, yəni ayda təxmini 3 milyon ödəməlidir. Kreditin qaytarılmasında 6 aydan çox gecikmə var. Belə kredit təhlükəli kredit hesab olunur və 60 faiz, 60 milyon manat ehtiyatın yaradılmasını tələb edir. Bank kreditin müddətini 15 ilədək uzadır, yəni bundan sonra ayda 3 milyon əvəzinə 600 min ödəyəcək. Bundan sonra aylıq ödənişlərin miqdarı endiyi üçün 6 ay ərzində gecikmə olmur. Bu əsasla da bank 60 milyon əvəzinə 30 milyon ehtiyat saxlayır, yəni krediti təhlükəli kateqoriyasından qeyri-qənaətbəxş kateqoriyasına aid edir. Yenə 6 ay keçir və bank 30 milyon əvəzinə 2 milyon ehtiyat saxlayır, yəni krediti qeyri-qənaətbəxş kateqoriyasından nəzarət altında olan kateqoriyasına aid edir. Əslində isə borclu krediti qaytarmaq iqtidarında deyil, kredit çoxdan ümidsizdir. Sadəcə, bank ehtiyatın azaldılması hesabına başqa yaxın şirkətə kredit verib və birinci kredit də yeni kreditin hesabına qaytarılır. Bir sözlə, bank hamını aldadır və maliyyə vəziyyətinin qənaətbəxş olduğunu göstərir. Ən vacibi isə budur ki, bu zaman o heç bir qanunu pozmur. Çünki Mərkəzi Bank son qərarı ilə özü bu fırıldaq üçün qanuni əsas yaradıb".

**Ə.Həsənov qeyd edib ki, fevral devalvasiyasından sonra Mərkəzi Bank sözügedən qaydalara artıq bir dəfə dəyişiklik edib:** "Həmin dəyişiklik də banklara devalvasiyadan sonra restrukturizasiya olunmuş kreditlər üzrə daha az ehtiyat yaratmaq imkanı yaratmışdı. Görünən odur ki, həmin tədbir kifayət etməyib və bankların problemli kreditlərinin həcmi o qədər artıb ki, onlar üçün kifayət qədər ehtiyat yaratmağa qadir deyillər. Başqa sözlə, kapitalları çatışmır, pulları yoxdur. Buna görə də Mərkəzi Bank bu dəyişikliyi məhz indi edib ki, bankların 3-cü rübün nəticələri üzrə hesabatları əhalini, ilk növbədə əmanətçiləri qorxutmasın. Məsələ burasındadır ki, ehtiyatlar kapitalı azaldır. İndi isə banklar hesabatlarında ehtiyatlarını azaldaraq, kapitallarının qənaətbəxş olduğunu nümayiş edəcəklər. Bir sözlə, Mərkəzi Bank bank nəzarəti tələblərini ona görə yumşaldır ki, bankların acınacaqlı vəziyyətini pərdələsin. Nəticədə əhaliyə yanlış məlumat ötürülür ki, guya hər şey normaldır. Bank müştəriləri, ilk növbədə əmanətçilər bundan nəticə çıxarmalıdır. Ehtiyatlı olun! Onu da unutmayın ki, bu dəyişikliyi edən Mərkəzi Bank artıq xeyli müddətdir ki, "Bank of Azərbaycan" və "Bank Technique" tərəfindən əhalinin əmanətlərinin qaytarılmamasına da göz yumur, həmin banklara nə kömək edir, nə də lisenziyasını geri alır. Bir sözlə, devalvasiyadan sonra Mərkəzi Bank bankların çaldığı havanı oynayır və əhalini təhlükə altına qoyur".

❑ **RÖYA**

# İcbari tibbi sığorta niyə ləngiyir...

## Hər il problemin növbəti ildə həll olunacağı vəd edilir, ancaq məsələnin çözülməsi üçün əngəllər çoxdur...

**İcbari tibbi sığorta problemi 16 ildir ki, həllini gözləyir. Bununla bağlı qanun qəbul olunub, hətta qanunda bəzi dəyişikliklər də aparılıb. Dünya təcrübəsinin uyğun modelləri seçilib. Nazirlər Kabinetində tibbi sığortanın işə düşməsi mexanizmləri hazırlanıb və bundan ötrü işçi qrupu yaradılıb. Ancaq məsələ illərdir ki, həllini tapmır. Bir müddət əvvəl hətta Nazirlər Kabineti "Tibbi sığorta müqaviləsinin forması və bağlanma Qaydası"nda dəyişikliklər edib. Ancaq problem hələ də aktuallığını qorumaqdadır.**

Ekspert Vüqar Bayramov məsələ ilə bağlı musavat.com-a bildirib ki, icbari tibbi sığortanın uğurla tətbiqi üçün qanunvericiliyin, o cümlədən normativ hüquqi aktların uyğunlaşdırılmasına ehtiyac duyulur: "Belə ki, səhiyyə nazirinin 1 fevral 2008-ci il tarixli qərarına əsasən, dövlət xəstəxanalarında tibbi xidmət pulsuzdur. Səhiyyə xidməti pulsuzdursa, nə üçün icbari tibbi sığortanın tətbiqinə ehtiyac var? Səhiyyə Nazirliyinin qərarlarının Azərbaycanın bu sahədəki qanunvericiliyinə uyğunlaşdırılması olduqca vacibdir.

İkincisi, sığorta ödənişlərinin işəgötürənlə işçi arasında bölüşdürülməsi mexanizmlərinin aydın formalaşdırılmasına ehtiyac var. Sığortanın yalnız işçinin üzərinə düşməsi işçi üçün sosial ağırlıq yarada bilər. İşəgötürənin icbari tibbi sığortanın ödənilməsinə məsul edilməsi isə işçilərlə müqavilə bağlanması məsələsini xeyli yubandıracaq. İşəgötürənlər işçilərlə müqavilə bağlamaqda maraqlı olmayacaqlar. Buna görə də bir sıra Avropa ölkələrində olduğu kimi icbari tibbi sığortanın işəgötürən və işçi arasında bölüşdürülməsi məqsədəuyğun hesab olunur. Üçüncüsü, xəstəxanalar prosesə hazır olmalıdır. Təəssüf ki, bu gün xüsusilə dövlət xəstəxanaları sığorta şirkətləri ilə işləmək təcrübəsinə tam malik deyillər. Xəstəxanaların bu prosesə hazırlanması, onların sığorta şirkətləri ilə işləmə ənənəsi formalaşmalıdır".

**O, həmçinin qeyd edib ki, qanunvericilikdə icbari tibbi sığortanın tətbiqi mexanizmləri göstərilməlidir:** "Dördüncüsü, tədqiqatlar göstərir ki, "Tibbi sığorta haqqında" qanun indiki tələbləri tam şəkildə ödəmir. Qanunda bir sıra boşluqlar var ki, onlar icbari tibbi sığortanın tətbiqinə imkan vermir. Qanunvericilikdə icbari tibbi sığortanın tətbiqi mexanizmləri göstərilməlidir. Eləcə də Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Agentliyin statusunun təkmilləşdirilməsinə ehtiyac var. Çünki bu agentlik icbari tibbi sığortanın tətbiqinə birbaşa məsul olan qurumdur. Beşincisi, işləməyən və eləcə də ünvanlı sosial yardım alan vətəndaşlar üçün ödənişlərin dövlət tərəfindən və eləcə də hansı icraedici qurum tərəfindən necə ödənilməsi qanunvericilikdə aydın şəkildə əksini tapmalıdır".

**V.Bayramovun sözlərinə görə, səhiyyənin maliyyələşdirmə mexanizminin dəyişdirilməsinə ehtiyac var:** "Azərbaycanda hər min nəfərə 7,6 xəstəxana çarpayısı düşür. Bu göstərici Almaniyada 3,8, Türkiyədə isə 2,3-dür. Ölkəmizdə çarpayıların sayının çox olmasına baxmayaraq ondan istifadə göstəricisi başqa dövlətlərlə müqayisədə xeyli aşağıdır. Çarpayıların cəmi 26,1 faizi istifadə edilir. Bu göstərici Almaniyada 89,5, Rusiyada 86, Türkiyədə 61,9 faizdir. Avropa Birliyi üzrə həmin göstərici 76,9, MDB üzrə isə 85,9 faizdir. Buna görə də icbari tibbi sığortanın tətbiqi ilə yanaşı səhiyyənin maliyyələşdirilməsi sisteminin təkmilləşdirilməsi olduqca vacibdir. Nəhayət, nəzərə almaq lazımdır ki, icbari tibbi sığortada üç tərəf var: sığorta şirkətləri, xəstəxanalar və vətəndaşlar. Bu gün bu üç tərəf arasında sığorta münasibətlərinin tam formalaşdığını demək çətindir. Sığorta edənlə sığorta olunanaların tibbi sığortanın əhəmiyyəti ilə bağlı məlumatlılıq səviyyəsi olduqca aşağıdır. Bu o deməkdir ki, ölkədə tibbi sığorta mədəniyyəti zəifdir Təbii ki, bu münasibətlərin yaxşılaşdırılması və ya sivil müstəviyə keçməsi üçün sığortalıların maarifləndirilməsinə ehtiyac var. Sığorta şirkətləri ilə dövlət xəstəxanaları arasında da münasibətlərin qurulmasında müəyyən problemlər var: hələ də sığorta şirkətləri ilə dövlət xəstəxanalarının əksəriyyəti arasında münasibətlər sivil səviyyədə qurulmayıb. Sığorta sənədlərinin xəstəxanalarda qəbulu ilə bağlı problemlər qalmaqdadır. Bütövlükdə tibbi sığorta ilə bağlı biliklərin aşağı olması icbari tibbi sığortanın inkişafını tormozlayan faktorlardan biridir".



**Ekspert Natiq Cəfərli isə qeyd edib ki, «İcbari tibbi sığorta haqqında» Qanun hələ 28 oktyabr 1999-cu ildə mərhum dövlət başçısı Heydər Əliyev tərəfindən imzalanmışdı. Qanunun tətbiqi üçün Nazirlər Komitəsinə zaman verilmişdi. Amma artıq 16 il keçməsinə baxmayaraq, hələ də qanun işləmir:** "Maliyyə naziri Samir Şərifov gələn ildən qanun qüvvəyə minəcəyini söylədi, amma bunun üçün alt yapı hələ də hazır deyil. İcbari tibbi sığortaya keçid üçün bütün səhiyyə sisteminin idarəedilməsi yenidən qurulmalıdır. İcra hakimiyyətlərinin nəzdində səhiyyə idarələri ləğv edilməli, nazirliyin isə inzibati müdaxilələri minimuma enməlidir. Bundan başqa, maaşlar leqallaşmalı, əmək müqavilələri sərtləşməli, müqavilə zamanı icbari tibbi sığortanın şərtləri müəyyən edilməli, işəgötürənlə işçi arasında ödəniş bölgüsü olmalı, dövlət büdcəsindən də əlavə stimullaşdırıcı pay, məbləğ ayrılmalıdır. Bu çox böyük bir iş həcmidir, hələ ki bu işlərlə bağlı prosesin getdiyi haqqında məlumat yoxdur. Çünki dövlət və hökumət strukturları da, məmurlara bağlı biznes çevrələri də bu qaydaların tətbiqini istəmirlər. Sığorta tətbiq edilərsə, icra hakimiyyətinin həkimlərdən bir seçki və inzibati resurs kimi istifadə etməsinə də son qoyulacaq".

Ekspertlər bildirirlər ki, ölkədə icbari tibbi sığortanın tətbiqi üçün illərdir ki, qanunvericilik bazası yaranıb. Lakin hələ də bu mexanizm işə salınmayıb. İcbari sığortanın tətbiqi üçün eyni adlı fond yaradılacağı da bildirilirdi. Bildirilir ki, bu addımın atılmamasının səbəbləri çoxdur, əsası ümumi sistemdə yaşanan problemlərdir. Yəni əhalinin böyük əksəriyyəti qeyri-leqal əmək fəaliyyəti göstərir, əmək müqavilələri bağlanılmır, vergidən yayınmalar olur. Tibbi icbari sığortaya keçid üçün bu çox önəmli məsələdir, yəni bunun üçün leqal maaş, leqal vergi sistemi tənzimlənməlidir ki, bu mexanizm işə düşsün. Bu sistem bir çox səhiyyə işçilərinin və dövlət strukturlarının marağında olmadığından proses ləngiyir.

Həmçinin bildirilir ki, icbari tibbi sığorta vətəndaşların səhiyyə xərclərinin azalmasına, işsiz insanların səhiyyə xidmətlərindən yararlanmasına köməklik göstərəcək. Bu sistem əhalinin istədiyi səhiyyə müəssisəsində müalicə və müayinə olunmaq imkanı verəcək. Maddi imkandan asılı olmayaraq, hər kəs arzu etdiyi şəkildə müalicə ala biləcək. Həkim və xəstə arasında qeyri-leqal ödəniş problemi də aradan götürüləcək.

Son olaraq, bu ilin oktyabrında maliyyə naziri Samir Şərifov sosial sığortadan danışıb və bildirib ki, gələn ildən Azərbaycanda da tibbi sığorta tətbiq olunacaq.

Qeyd edək ki, icbari tibbi sığorta bütün vətəndaşların məcburi olaraq sığorta olunması deməkdir. Bu zaman işsiz statusu olan və ya ünvanlı sosial yardım alan ailələr üçün sığorta haqları dövlət tərəfindən alınır. Vətəndaş isə səhiyyə xidmətinə ehtiyacı olan, daha aydın desək, xəstələnən zaman sığorta sənədini göstərməklə pulsuz olaraq müalicə oluna biləcək.

Bu sisteminin tətbiqi sığorta şirkətlərinin gəlirlərinin artmasına da gətirib çıxaracaq.

❑ **R.RƏFİYEVA**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 234 (6262) 22 oktyabr 2015




# "Ermənistanın Qarabağ məsələsində manevr imkanları tükənir"

## Rusiyalı ekspertlərə görə, Azərbaycanın hərbi qüdrəti və regiondakı önəmi artıb; **Karavayev:** "Münaqişənin Bakının xeyrinə həlli üçün sadəcə, səbir lazımdır..."

**Rusiyanın başı Suriya və Ukrayna məsələlərinə nə qədər qarışsa da, Dağlıq Qarabağ konfliktinin həllində Moskva həlledici söz sahibliyini saxlayır. Bu amil Azərbaycanın maraqları baxımından, o cümlədən Qarabağ məsələsinə yanaşmada məqbuldurmu ya yox, hələ ki suala daha çox inkari cavab var, nəinki təsdiqi. Lakin o da faktdır ki, Moskva-Bakı əlaqələrində xüsusən də son illərdə ciddi yaxınlaşma prosesi gedib, Rusiya Azərbaycanın əsas silah təchizatçısı olaraq qalır, mədəni-iqtisadi və digər sahələrdə canlanma var.**

Odur ki, belə bir sual da aktualdır ki, bu yaxınlaşma hara qədər gedə bilər və onun münaqişənin ədalətli şəkildə nizamlanmasına pozitiv təsirləri mümkündürmü və yaxud Moskva Bakıya yalnızca silah satmaqla kifayətlənəcək, yoxsa konfliktə yanaşmada Azərbaycanın maraqlarını da nəzərə alacaq?

Siyasi ekspertlərin bu mövzuda maraqlı şərhləri var.

*****

"Bu gün Azərbaycan Qərbin siyasi təzyiqləri nəticəsində Rusiya ilə eyni geosiyasi sektorda yer alıb. Lakin bu, Bakının şüurlu seçimi deyil, reallıqların diktə elədiyi məcburiyyətdən doğan situasiyadır. Ona görə də yeni şəraitdə iki ölkə arasında əlaqələr dinamik inkişaf eləməyə başlayıb" .

**Bu sözləri rusdilli minval.az saytına müsahibəsində Moskvadakı İqtisadiyyat İnstitutunun elmi əməkdaşı, politoloq Aleksandr Karavayev bildirib. Onun sözlərinə görə, Rusiyanın Azərbaycana silah təchizatını artırmasının özü Bakının mövqeyinin güclənməsinə işləyən yetərincə böyük addımdır:** "Ancaq burada çox mühüm bir detalı unutmaq olmaz. Bu da odur ki, Moskva hələ ki Bakı və İrəvana onların müxtəlif sferalarda olmasına rəğmən, öz yaxın müttəfiqləri kimi baxır. Ona görə də Rusiya konflikti elə idarə eləməyi planlaşdırır ki, hər iki müttəfiqi öz orbitində saxlasın. Bu, asan deyil. O fakt ki, Ermənistan KTMT-yə daxildir və Avrasiya İqtisadi Birliyinin üzvüdür, Azərbaycan isə "Qoşulmamaq hərəkatı" blokunun strategiyasını seçib, bütün bunlar Dağlıq Qarabağ məsələsində Moskva üçün həlledici faktor deyil. Bu fakt əlbəttə ki, ən çox İrəvanı qayğılandırır".

**"Bəs "bərabər çəkili müttəfiqlər" modeli çərçivəsində konfliktin Bakının xeyrinə həlli mümkündürmü" sualına analitikin cavabı belə olub:** "Mümkündür, amma bu, uzunmüddətli təkamül məsələsidir. Səbir eləmək lazımdır. Gəlin baxaq görək, son 5 ildə nə dəyişib? Qlobal iqtisadi böhran Ermənistanın blokadasını gücləndirib. Bu fonda Ermənistanda ictimai rəy Bakı ilə kompromis axtarışlarının xeyrinə dəyişib. Öz növbəsində Azərbaycanın hərbi-texniki inkişafı erməni elitasını əsəbləşdirməyə məcbur eləməklə rəsmi İrəvana daha hiss edilən təzyiq faktoruna çevrilib. Bu zaman Ermənistanda müxtəlif səviyyələrdə iqtisadi böhrandan çıxmağın, nəqliyyat dəhlizləri əvəzinə ərazilərin qaytarılması tərəfdarlarının sayı artıb. Yəni İrəvana müxtəlif tərəflərdən təzyiqlər güclənir və manevr üçün imkanlar daralıb. Bütün bunlar reallıqlardır. Digər yandan, Azərbaycanın hərbi əməliyyatları 5 il öncə problemin həllinə gətirə bilərdimi? Şübhə edirəm. Bəs birdən "proval" olsaydı? Odur ki, Bakı üçün hər halda müsbət dinamika var. Bu üzdən prezident İlham Əliyevin bu mövzuda bir çox çıxışları o anlamda bitir ki, Bakı üçün məsələdə diplomatik resursları hələ tükənməyib".

*****

Resurslar tükənməyib, ancaq 22 ildir ATƏT-in Minsk Qrupu problemin həllində "bir yerə" çıxa bilmir. Status-kvo dəyişməz qalır və dəyişməz qaldıqca müharibə riskləri də öz əhəmiyyətini sövq-təbii saxlayır. Hər halda, sərt gerçəklik belədir ki, 22 ildə Azərbaycanın işğal altındakı bir kəndi də azad edilməyib. Bu da tam haqlı olaraq Bakını savaş ritorikasına üstünlük verməyə kökləyir.

Doğrudur, havaların soyuması ilə yeni, genişmiqyaslı hərbi əməliyyatların başlanması ehtimalı azalıb. Lakin bu vasitəçi dövlətlərdə, ələlxüsus da Rusiyada arxayınçılıq yaratmamalıdır. Əksinə, problemi, nəhayət, ölü nöqtədən tərpətmək üçün unikal fürsət kimi qiymətləndirilməlidir. Ən azı ona görə ki, bir daha belə şans ələ düşməyə bilər.

Bir də əgər həmsədr dövlətlər - Rusiya, ABŞ, Fransa həqiqətən də növbəti qaynat müharibə ocağı arzulamırsa, o zaman niyə də postsovet məkanının ən köhnə, ən təhlükəli münaqişəsi kimi Qarabağ məsələsinin həllinə tələsməsin? Axı kim bilməsə də onlar yaxşı bilir ki, istənilən sülhün alternativi müharibədir.



*****

**"Azərbaycanın regionda rolu artır". Belə bir fikri isə digər rusiyalı politoloq, "Rusiya qlobal siyasətdə" jurnalının baş redaktoru Fyodor Lukyanov "Vestnik Qafqaza"** nəşrinə müsahibəsində deyib.

"Rusiya ilə Azərbaycanın əlaqələri açıq-aşkar fəallaşıb. Bu, əlbəttə ki, Ermənistanı əsəbləşdirir. Özü də bu o zaman baş verir ki, Moskva daim qeyd edir ki, onun Bakı ilə tamamilə ayrı tip təmasları var, nəinki İrəvanla. Bununla belə, Bakının rolu obyektiv olaraq artır, o cümlədən Yaxın Şərqlə bağlı vəziyyətə görə" - qeyd edib politoloq.

**Onun sözlərinə görə, Rusiyanın Ermənistanla bugünkü münasibətləri sadə deyil:** "Ermənistanın Avrasiya İqtisadi İttifaqına qoşulmasından sonra onunla müttəfiqlik əlaqələrinin qurulması indi daha mürəkkəb xarakter alıb. Daima maraqlar balansının qorunması üçün iş gedir".

**Siyasi təhlilçi hesab edir ki, Rusiyanın Dağlıq Qarabağla bağlı Azərbaycanla Ermənistan arasında dialoqa dəstək verməsi vacibdir.** "Səmimi desəm, hələlik Qarabağ probleminin nizamlanma yollarını hələ ki, görmürəm. Yalnız qüvvələr balansını saxlamağın yolları görünür. Ki, hamıda hərbi yolla konfliktin həll edilməyəcəyinin dərki saxlansın. Bu hazırda etmək mümkün olan yeganə işdir, çünki əfsuslar olsun ki, münaqişənin həlli üçün heç bir siyasi zəmin gözə dəymir Bu zaman dialoqa dəstək verilməsi - əgər hətta bu dialoqun nəticəsizliyi öncədən bəllidirsə belə - çox mühümdür" - əlavə edib rusiyalı ekspert.

# "Bakı Ermənistanın ballistik raketlərini tam neytrallaşdırıb"

## **Erməni analitik:** "Azərbaycan hazırda regionun əsas oyunçusu kimi kifayət qədər möhkəmlənib..."



**Ermənistan gizlicə Dağlıq Qarabağda "Skad B" ballistik raketlərini yerləşdirərək Qarabağda hərbi əməliyyatların başlayacağı təqdirdə Azərbaycanın neft infrastrukturunu hədəf almağı planlaşdırırdı. Lakin hazırda Azərbaycanın malik olduğu S-300 PMU "Favorit" zenit-raket sistemləri ölkənin əsas neft infrastrukturunu istənilən hava və raket hücumundan tam müdafiə edərək Ermənistanın ballistik raket təhdidlərini neytrallaşdırır.**

Bu qənaətlə Avstraliyada mənzillənmiş erməni analitik, Holokostu və "Soyqırımı" Araşdırma İnstitutunun təhqiqatçısı Masis İngilisyan bellingcat.com bloqunda çıxış edib (virtualaz.org). Erməni ekspert hərbi və təhlükəsizlik tematikası üzrə ixtisaslaşmış "İMİNT Analysis" mərkəzinin rəhbəri Şon Konnerin təqdim etdiyi məlumatlara əsasən bildirir ki, Azərbaycanın S-300 raketləri strateji obyektlərin hava-raket hücumundan etibarlı şəkildə müdafiəsini təmin etmək üçün döyüş mövqeyində dayanıblar.

"İMİNT Analysis" 2012-ci ilin sonlarında Google Earth proqramının köməyi ilə Ermənistanın Dağlıq Qarabağda yerləşdirdiyi "Skad B" ballistik raketlərinin fotolarını çəkərək yaymışdı. Həmin raketlərin 300 kilometr uçuş radiusu var və Ermənistan bu raketləri gizlicə Qarabağda yerləşdirməklə Bakının neft infrastrukturunu hədəf almağa çalışırdı.

Mərkəz açıq mənbələrdən toplanan məlumatlar əsasında bildirir ki, Ermənistanın 8 atış qurğusu və 24 belə raketi var. Lakin bu atış qurğularından eyni vaxtda 8 raketin buraxılması belə Azərbaycanın S-300 PMU "Favorit" zenit-raket sistemlərinin müdafiəsini yarıb keçməyə imkan vermir. Çünki bu zenit-raket sistemləri eyni vaxtda 12 raket buraxmaq imkanındadır və Ermənistanın istənilən ballistik təhdidini neytrallaşdırmağa imkan verir.

"Azərbaycan Ermənistana və cənub qonşusu İrana qarşı mürəkkəb Hava Hücumundan Müdafiə Sistemi qurub, bu sistem istənilən potensial təhdidin qarşısını almağa imkan verir. Ermənistan Azərbaycanın daha böyük hərbi təhdidinə qarşı ona ani üstünlük verə biləcək kartı oynamaq istəyirdi. Lakin Azərbaycan hazırda regionun əsas oyunçusu kimi kifayət qədər möhkəmlənib, həm də təkcə hərbi planda deyil, geosiyasi planda mövqelərini möhkəmləndirib. Bu, Azərbaycanın müxtəlif tipli istənilən mürəkkəb hava hədəflərini vurmağa imkan verən havadan müdafiə sistemi sayəsində baş verib", - deyə Cənubi Qafqaz, İran və Rusiya araşdırmaları üzrə ixtisaslaşmış İngilisyan bildirir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

## Hacı Məmmədovun dəstəsinin üzvünün şikayəti təmin edilmədi



**Bakı Apelyasiya Məhkəməsində adam oğurluğu, sifarişli qətllər və digər xüsusilə ağır cinayətlərdə ittiham olunaraq ömürlük azadlıqdan məhrum edilən Daxili İşlər Nazirliyi Baş Cinayətkarlıqla Mübarizə İdarəsinin sabiq baş əməliyyat müvəkkili Hacı Məmmədovun dəstəsinin üzvü olmuş Ədalət Əsədullayevin apelyasiya şikayətinə baxılıb.**

APA-nın məlumatına görə, məhkəmə şikayəti təmin etməyib. Ə. Əsədullayev cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi barədə ərizə ilə Xəzər Rayon Məhkəməsinə müraciət edib. Lakin iddia təmin olunmayıb.

Qeyd edək ki, Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmənin 17 yanvar 2007-ci il tarixli hökmü ilə Ədalət Əsədullayev 12 il müddətinə azadlıqdan məhrum edilib.

## Sumqayıtda dəhşətli qətl: baldız yeznəsini öldürdü

**Sumqayıtda dəhşətli qətl hadisəsi baş verib. Hadisə şəhərin 17-ci mikrorayon, ev 21, mənzil 61-də qeydə alınıb. Belə ki, 1972-ci il təvəllüdlü Murad Babayev bıçaqla qətlə yetirilib. Məlum olub ki, M. Babayevi öz baldızı öldürüb. Qətl hadisəsinin ailə münaqişəsi zəminində baş verdiyi ehtimal edilir. Faktla bağlı araşdırma aparılır.**

❑ **Xeberle.com**

## Rusiya vətəndaşı Bakıda adam güllələdi

**Bakıda silahlı insident olub. APA-nın məlumatına görə, hadisə Suraxanı rayonu Qaraçuxur qəsəbəsində qeydə alınıb. Rusiya vətəndaşı Vəli Əhmədov aralarında yaranmış mübahisə zəminində Bakı şəhər sakini Sənan İsmayılova "Vinçester" markalı silahdan atəş açıb.**

S. İsmayılov güllə yarası ilə xəstəxanaya yerləşdirilib. Hadisəni törədən V. Əhmədov saxlanılıb. Faktla bağlı Suraxanı Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 29, 120.1-ci (qəsdən adam öldürməyə cəhd) maddəsi ilə cinayət işi başlanıb, istintaq gedir.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (*enurez*)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**





## Özünü 10-cu mərtəbədən atan qız avtomobilin üzərinə düşdü

**Bakının Yasamal rayonunda gənc qız intihar edib. Bu barədə "Report"a rayon prokurorluğundan məlumat verilib. Belə ki, 20 yaşlı Ləman Kərimova özünü hündürmərtəbəli binanın onuncu mərtəbəsindən atıb.**

O, həyətdə qonşusuna məxsus "Hundai" markalı avtomobilin üzərinə düşüb. L.Kərimova elə hadisə yerindəcə ölüb.

Faktla bağlı Yasamal Rayon Prokurorluğunda araşdırma aparılır.

## Nəfəs yolunda nar dənəsi qalan 7 aylıq qız ölüb

**Zaqatala rayonunda boğazında nar dənəsi qalan 7 aylıq qız ölüb. Körpənin dayısı Nurulla Muradovun APA-nın Şəki-Zaqatala bürosuna verdiyi məlumata görə, oktyabrın 20-də günorta saatlarında bacısı qızı Ruqiyyə Məmmədovanın yediyi nar giləsi onun tənəffüs borusuna düşüb.**

Valideynləri körpəni Zaqatala Mərkəzi Rayon Xəstəxanasına aparsalar da, onlara uşağı Şəki MRX-yə aparmağı məsləhət görüblər.

Dayısının sözlərinə görə, Zaqatala MRX-dən onlara heç bir həkim və təcili yardım maşını verilməyib. Uşağı həkim nəzarəti olmadan Şəki MRX-yə aparıblar. Orada isə artıq körpəyə kömək edə bilməyəcəklərini deyiblər və Bakıya çatdırılması məsləhət görülüb. Körpə Bakıya gətirilərkən yolda keçinib.

Zaqatala MRX-dən APA-ya fakt təsdiqlənib, körpəyə orada lazımi tibbi yardımın göstərildiyi bildirilib.

Uşaq doğulduğu Qımır kəndində torpağa tapşırılıb.

## Bakıda quldurluqda təqsirləndirilən şəxsə hökm oxunub

**Bakı Ağır Cinayətlər Məhkəməsində quldurluqda təqsirləndirilən Camal Eynullayevin məhkəmə prosesi başa çatıb. "Report"un məlumatına görə, hakim Mahmud Ağalarovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.**

Məhkəmənin hökmü ilə C.Eynullayev 10 il müddətinə azadlıqdan məhrum edilib.

Qeyd edək ki, hadisə 2014-cü ildə baş verib. Bakıda "Milli Park"ın ərazisində şəxsiyyəti məlum olmayan 4 nəfər Bakı şəhər sakini Qabil Quliyevi bıçaqla hədələyərək 230 manatını alıb. Səbayel rayonu 39-cu polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni törətmiş Bakı şəhər sakinləri Camal Eynullayev və Əfqan Salmanov tutulub.

C.Eynullayev 181.2.1-ci (quldurluq, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) maddəsi ilə ittiham olunub.


**Elan**

**Məmmədov Kamil Əmrah oğlunun adına olan Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyinin motros kitabçası itdiyi üçün etibarsız sayılır.**



**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34






## Bakıda bu evlər hər an uça bilər

**Sabunçu rayonu, Sabunçu qəsəbəsində qayaların üstündə tikilən onlarla evin hər an uça biləcəyi haqda xəbər vermişdik. Sabunçu dəmir yolu vağzalının yaxınlığında yerləşən evlərin altındakı qayalıqlar yavaş-yavaş uçur.**

Musavat.com xəbər verir ki, ərazidə artıq bir neçə dəfə uçqun baş verib. Evlərin yanından dəmir yolu xəttinin keçməsi, yağan yağışlar təhlükəni daha da artırır.

Havaların yağışlı keçməsi ilə ərazidə yenidən böyük uçqun baş verib. Hətta uçqun ərazidən keçən dəmir yolu xətlərindən birini bağlayıb.

Daha sonra relslərin üstü qayalardan təmizlənib. Lakin heç bir təhlükəsizlik tədbirləri görülməyib. Sakinlər qorxu içərisində evlərinin hər an uça biləcəyindən narahatdırlar.

Yaranan vəziyyətlə bağlı müvafiq qurumlar sakinlər tərəfindən məlumatlandırılıblar. Bu barədə ötən ay da qəzetimizdə məlumat dərc edilmişdi.

Lakin hələlik addım-addım yaxınlaşan faciə ilə bağlı heç bir tədbir görülmür.

❑ **İlkin MURADOV,**
**Fotolar müəllifindir**



## Suraxanıda küçədən meyit tapıldı

**Bakının Suraxanı rayonunda meyit tapılıb. Teleqraf.com xəbər verir ki, meyit rayonun İ.Əhlimanov küçəsi, 9 ünvanının qarşısında aşkarlanıb. Bakı şəhər sakini, 1970-ci il təvəllüdlü Əflatun Həsən oğlu Verdiyevin üzərində zorakılıq əlamətləri görünməyən meyiti küçədə tapılıb. Faktla bağlı Suraxanı Rayon Prokurorluğunda araşdırma aparılır.**


**Elan**

**Qəbələ rayonu Vəndam kəndində parket fabriki bütün avadanlıqları ilə birlikdə, çox ucuz qiymətə (7500 AZN) təcili satılır.**
**Tel: 070 335 90 15**

**Binəqədi-Xırdalan şossesi yaşayış massivi, Respublika Dövlət Yol Polisinin yaxınlığında əlverişli qiymətə 4 sot torpaq sahəsi satılır. 2,5 metr hündürlükdə daş hasarın içərisində, əla yerdə. İşıq, qaz, su 15 m. məsafədə yerləşir. Yenilənmiş kanalizasiya xətti, meyvə ağacları var. Yol asfalt-beton.**
**Tel: (050) 614-40-24**



**Elan**

**Buzovna dairəsində, Daxili Qoşunların yanında 7 sot torpaq satılır. Sotu 7500 AZN.**
**Əlaqə telefonu: (050) 343-59-72**

YENİ MÜSAVAT
N 234 (6262) 22 oktyabr 2015

**Daha bir qurum Nəqliyyat Nazirliyindən alınır. Artıq Milli Məclisdə bununla bağlı təklif verilib. Milli Məclisin sonuncu iclasında Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzinin Nəqliyyat Nazirliyindən alınıb Daxili İşlər Nazirliyinə verilməsi təklif olunub. Bu təşəbbüslə hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli çıxış edib.**

# Daha bir qurum Nəqliyyat Nazirliyindən alınır

## Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzinin DİN-ə verilməsi təklif edilir, ekspertlərsə bunun müsbət nəticəsi olacağını düşünmür...

O bildirib ki, onsuz da bu mərkəzdə toplanan məlumatlar DİN-ə ötürülür və bu qurumun DİN-ə verilməsi nəqliyyat sektorunda son vaxtlar aparılan islahatlara öz töhfəsini verəcək: "Hesab edirik ki, hökumət bunu yaxın zamanlarda müzakirə edib qərar verəcək". Ə.Hüseynlinin təklifinə deputat Adil Əliyev də dəstək verib.

Ekspertlər isə təklifin Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzinin işinə müsbət təsir göstərəcəyinə o qədər də ümid etmirlər. Nəqliyyat Nazirliyində isə məsələ ilə bağlı ancaq mətbuatdan eşidiblər. Qurumun mətbuat xidmətinin rəhbəri **Namiq Həsənov** məsələ ilə bağlı musavat.com-a bildirib ki, xəbəri Milli Məclisdə səsləndikdən sonra eşidiblər: "Bütün hallarda o qurumun səlahiyyətinin necə bölüşdürülməsi məsələsində mən səlahiyyətli deyiləm. Hər halda, bu elə bir məsələdir ki, aidiyyəti instansiyalar, müxtəlif qurumlar rəy bildirə bilər. Bu, hökumət, qanunvericilik səviyyəsində müzakirə olunan məsələdir. Təklif açıqlanıb. Bu sistem hələ də bizim nəzdimizdə fəaliyyət göstərir. Hər halda, müzakirəsiz bu barədə danışmaq düzgün deyil. Əgər yekun qərar olarsa, fikrimizi açıqlayarıq. Bu, daha yüksək instansiyaların müzakirə mövzusudur. Bununla bağlı indiyə qədər nazirlikdə heç bir müzakirə olmayıb, narahatlıq da yoxdur. Bu sistem indiyə qədər çox yüksək səviyyədə öz işini davam etdirib. Sistem hər gün yeni texnologiyalarla, yeni dikirlərlə zənginləşdirilir. Daha çevik idarəetmə mərkəzi yaranıb orada. O mərkəz indi daha yaxşı fəaliyyət göstərir. Yəqin birbaşa yol hərəkətinin tənzimlənməsinə görə deputatlar həmin fikirləri səsləndiriblər".



**Ekspert Natiq Cəfərli isə məsələ ilə bağlı musavat.com-a bildirib ki, burada söhbət idarəetmənin özünün yanaşmasından gedir:** "İntellektual idarəetmə sisteminin hansı nazirlikdə olmasının heç bir əhəmiyyəti yoxdur. Bu sistemin quraşdırılmasına 110 milyona yaxın pul xərcləndi. Yəni bütün xətlər yeniləndi, ekranlar quraşdırıldı, yeni xətlər quraşdırıldı. Şəhərdə iki minə yaxın yeni xətlər çəkildi. Şəhərin küçələrini məhz buna görə qazırdılar. Yəni burada söhbət mərkəzin hansı idarədə, nazirlikdə olmağından, kimin tabeçiliyində olmağından getmir. Söhbət ümumiyyətlə bu sistemin normal çalışması üçün yaxşı komandanın formalaşmasından gedir. Məsələn, qonşu Gürcüstanda Tbilisi şəhərində cəmi 10 milyon dollara başa gəldi bu sistem. Çox etibarlı və çox normal da işləyir. Çünki ona birbaşa bələdiyyə nəzarət edir. Bələdiyyə isə seçkili orqandır. Şəhər meriyası seçkili orqandır. Mer seçkiləri keçirilir. Mer də anlayır ki, bu sahədə problemlər yaşansa, nəqliyyat çox ciddi məsələdir və problem olacaq. Bu, insanların gündəlik təmasda olduğu sahədir. Əgər bu sahədə problem yaşansa, gələn seçkilərdə onun səs itirmə və seçilməmə riski var. Onun üçün seçilən şəxs çalışır ki, o sistem daha yaxşı işləsin. Azərbaycanda problem məsuliyyət problemidir. Bu sistemi hansısa başqa bir quruma versələr də, məsuliyyət, hesabatlılıq yoxdur. Nə parlament qarşısında, nə ictimaiyyət qarşısında hesabatlılıq yoxdur. Bütün nəqliyyat sistemi normal olan ölkələrdə olduğu kimi, meriya, böyük şəhər bələdiyyəsi yaradılmalıdır və onun tərkibində fəaliyyət göstərməlidir. İnsanların ictimai nəzarəti həyata keçirilməsi üçün şərait yaradılmalıdır. Amma görünən odur ki, Azərbaycan Avropa Şurasına daxil olub, ancaq öhdəlikləri yerinə yetirmir. Böyük şəhər bələdiyyəsinin yaradılması ilə bağlı öhdəliyi yerinə yetirmir. Sonuncu olaraq Ermənistan 2009-cu ildə bu öhdəliyi yerinə yetirdi və böyük şəhər bələdiyyəsi yaradıldı, mer seçkiləri keçirildi. Yeganə ölkə Azərbaycandır ki, bu addımı atmaq istəmir".

**Ekspertin sözlərinə görə, problemin kökündə məhz siyasi idarəetmə sisteminin özü dayanır:** "Hansı strukturun idarəolunmasında bir az yaxşı, bir az pis olan addımlar ola bilər. Amma köklü şəkildə dəyişikliklərə nail olmaq istəyiriksə, fundamental idarəetmənin özünün də yanaşması dəyişdirilməlidir. Buna görə də Azərbaycanda nəhayət ki, seçkili orqanlar, bələdiyyələr yaradılmalıdır".

❑ **RÖYA**

# Bezdirici SMS-lərə necə "dur" deyək?

## "Müştəri telefonuna belə mesajların gəlməsini istəmirsə, bizə zəng etməsi kifayətdir": **Eyyub Hüseynov:** "Dövlət orqanları onlara cərimə kəsə, qadağalar qoya bilər..."

**"Müxtəlif balıqlardan hazırlanmış ləziz yeməklərimizin dadına baxmaq üçün sizi Halikarnas Balıkcısı restoranına dəvət edirik", "Optimaldan məişət texnikasını nağd al, yaşının yarısı qədər endirim faizi qazan"; "M.A.C. brendindən limitli sayda Haute Dags kolleksiyası artıq satışda! Sizi mağazalarımızda gözləyirik"; "Artıq bir nəfər 2000 manatın sahibidir, sən də 2 yaz göndər və növbəti həftə 2 min manat qazan" və sairə kimi SMS-lər yəqin ki, hər kəsə tanışdır. Bu tipli reklam SMS-lər gecə gündüz demədən telefonlarımıza gəlir.**

Hətta bir çox hallarda yetkinlik yaşına çatmayanların mənəviyyatına ziyan vura biləcək məzmunlu SMS-lər də göndərilir. Bir ailədə bir neçə nəfərin mobil telefonu olduğunu, eyni zamanda bir nəfərin bir neçə operatorun xidmətindən istifadə etdiyini nəzərə alsaq, o zaman operatorların insanları aldatmaqla gün ərzində nə qədər pul qazandığını təsəvvür etmək çətin deyil. Abunəçilər ardı-arası kəsilməyən bu SMS-lərdən canını necə qurtaracağının yollarını axtarır. Məntiqlə, mobil telefon fərdi xarakter daşıyırsa, özəldirsə, kiminsə parfüm mağazasından və ya ayaqqabı dükanından məlumat ona niyə daxil olmalıdır? Söhbət məhz məlumatların icazəli-icazəsiz olmasından gedir. Bu problem haqda geniş müzakirələr getsə də, hələlik müsbət dəyişiklik yoxdur. Əksinə, gün keçdikcə belə SMS-lərin sayı artır.

Azərbaycanda yaşanan problemlər dünyanın bir sıra ölkələrində də mövcuddur. Amma bizdən fərqli olaraq digər ölkələr bu problemin həlli üçün hüquqi müstəvidə praktik tədbirlər görməyə başlayıblar. Məsələn, Rusiyada mobil telefon abunəçisinə razılaşdırılmamış reklam SMS-i göndərmək mümkün deyil. Bundan ötrü operator abunəçi ilə ayrıca müqavilə bağlamalıdır. Abunəçinin razılığı olmadan onun nömrəsinə reklam tipli SMS-lər göndərərsə, Antiinhisar Xidməti operatorla bağlı ölçü götürəcək.




Xatırladaq ki, ötən il Türkiyədə də bu cür bezdirici sms-lərin qarşısının alınması istiqamətində ciddi tədbirlər görüldü. Belə ki, Türkiyədə qüvvəyə minən "Elektron ticarətin tənzimlənməsi haqqında" Qanuna görə icazəsiz reklam mesajı, elektron poçt göndərən firmalar cəzalandırılacaq. Şəxsi məlumatları, rabitə xidmətlərinin məxfiliyini və e-ticarət əməliyyatlarında istehlakçı hüquqlarını qorumağı hədəfləyən qanuna görə, mesajlar üçün mütləq istehlakçının razılığı lazımdır. Əgər qaydalara əməl edilməsə, hər bir mesaja görə 1000 lirədən 5 min lirəyə qədər cərimə cəzası tətbiq olunacaq. Mesajlar davam edərsə, cəza tədbirləri daha da sərtləşdiriləcək. Yeni qanuna görə, istehlakçılar istədikləri zaman bu mesajları almağa son verə biləcəklər. Belə ki, "Mesaj almaq istəmirəm" yazaraq SMS göndərəcəklər.

Yenə qanun layihəsinə görə, e-ticarət əməliyyatları zamanı ödəmə aparılmasından əvvəl məhsulla və qiymətlə bağlı bütün məlumatlar alıcıya açıq şəkildə bildirilməlidir.

Bəs bizdə niyə bu cəza tədbirləri həyata keçirilmir? Ümumiyyətlə, SMS-lər göndərən şirkətlər abunəçinin razılığını alırlarmı və ya onları necə dayandırmaq olar?

Suallarımıza cavab tapmaq üçün hər gün bezdirici SMS-lər göndərən bir neçə mağaza və restoranla əlaqə saxladıq. İlk olaraq demək olar ki, hər gün endirim kompaniyaları haqda müxtəlif SMS-lər göndərən, məişət texnikası avadanlıqları satışı ilə məşğul olan **"Optimal" mağazası** ilə əlaqə saxladıq. Mağazadan bildirdilər ki, alış-veriş edən hər kəsin nömrəsi qeydiyyata alınır və mağazadakı endirimlər, yeniliklər haqda məlumat xarakterli SMS-lər göndərilir. Avadanlıq alarkən alıcıya ona hər gün SMS göndəriləcəyi haqda xəbərdarlıq edilib-edilməyəcəyi məsələsinə gəlincə isə mağazadan nömrəni qeydə alarkən alıcıya yeniliklər haqda xəbər SMS-lər göndərəcəklərini bildirdiklərini dedilər. Bu SMS-lərdən bezənlərin onu necə dayandıracağına gəlincə, abunəçilər, sadəcə olaraq, mağazaya zəng etməklə öz nömrələrinin "qara siyahıya" salınmasına və beləcə, SMS-dən qurtulmağa nail ola bilərlər.

**Tez-tez SMS göndərən obyektlərdən biri də "Sultans" restoranıdır. Restoranla əlaqə saxlayıb eyni sualı onun təmsilçisinə verdik. Cavab belə oldu:** "SMS göndərdiyimiz şəxslər bizim daimi müştərilərimizdir və onların bizdə siyahısı var. Biz onların razılığı olmadan SMS göndərmirik. Onların özləri deyir ki, nəsə dəyişiklik olanda bizə məlumat verin. Biz SMS-ləri yalnız həftənin 5-6-cı günləri göndəririk. Əgər müştər bu SMS-lərin telefonuna gəlməsini istəmirsə, bizə zəng etməsi kifayətdir ki, biz həmin müştəriyə SMS göndərməyək".

Buradan belə bir nəticə hasil olur ki, əgər bir abunəçinin telefonuna gün ərzində 6-7 SMS gəlirsə, deməli, o bütün iş-gücünü atıb telefonun başında oturmalı və SMS göndərən mağaza və restorana zəng edərək SMS göndərməyi dayandırmağı tələb etməlidir.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bu kimi SMS-lərin istehlakçı hüququnu pozduğunu dedi:** "Təsadüfi deyil ki, bu ilin mart ayının 14-də bütün mobil operatorların, o cümlədən Rabitə Nazirliyinin məmuru və İqtisadiyyat Nazirliyinin məmurlarının yanında bu cür hallara son qoyulmasının vacibliyini vurğuladım. İstehlakçılar bu SMS-lərdən narahat və narazıdır. Ancaq təəssüflər olsun ki, burada abunəçiləri SMS-lərlə SMS-maniyaya salıb pul alma məsələsi də var. Rabitə Nazirliyi bu işlərə məhdudiyyət qoymalı və İqtisadiyyat Nazirliyi də bunun qarşısını almalıdır. Azərbaycan məhkəmələri hazırda istehlakçıların hüquqlarını qorumaq kimi incə məsələlərə baxmır. Lakin dövlət orqanları cərimə tətbiq edə, qadağalar qoya bilər".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT

Son səhifə

N 234 (6262) 22 oktyabr 2015



## Gözlər barədə bilmədiyimiz 12 gerçək

**1.** Qonur gözlər əslində mavi rəngdədir, sadəcə, qəhvəyi piqmentlərlə örtülü olur. Hətta qonur gözləri ömürlük maviyə çevirəcək xüsusi lazer proseduru da var.

**2.** Kişilərin 1/12-i daltonikdir.

**3.** Gözlər ömür boyu eyni ölçüdə qalır, burun və qulaq isə inkişaf etməkdən dayanmır.

**4.** Gözün buynuz təbəqəsi köpək balığındakına o qədər bənzəyir ki, sonunculardan bəzən göz əməliyyatlarında əvəzedici kimi istifadə olunur.

**5.** Orta hesabla biz ömür boyu 24 milyon müxtəlif təsvirləri görürük.

**6.** Gözlər hər saatda beyinə çoxlu sayda informasiya ötürür. Bu kanalın ötürücü xüsusiyyətini nəhəng şəhərlərin internet provayderləri ilə müqayisə etmək olar.

**7.** Gözlərimiz saniyədə 50 predmetə fokuslanır.

**8.** Mayalılar çəpgözlüyü cazibədarlıq simvolu hesab edirdilər. Bu səbəbdən onlar övladlarının çəpgöz olması üçün əllərindən gələni edirdilər.

**9.** Adi göz testi ilə 98,3 faiz şizofrenliyi müəyyən etmək olar.

**10.** İnsanlar və itlər digərlərinin gözündə ifadə oxuyan yeganə canlılardır. İtlər bu xüsusiyyətdən insanlarla ünsiyyət üçün istifadə edirlər.

**11.** Təqribən 2 faiz qadın gözlərin genetik mutasiyası nəticəsində 100 milyon rəng görə bilirlər.

**12.** Kosmonavtlar qravitasiyaya görə kosmosda ağlaya bilmirlər. Çünki göz yaşları kiçik diyircəyə çevrilir və gözü göynədir (milli.az).

# Arvadı oğlu ilə evdən qaçdı

**Türkiyənin Karaman şəhərinin sakini, 27 yaşlı Ramazan Bozkurt 7 il əvvəl evləndiyi, amma 8 ay əvvəl ondan ayrı yaşamağa başlamış 26 yaşlı arvadı Hülya Tuba Bozkurtu arayır. Milli.az DHA-ya istinadən bildirir ki, iki övlad anası olan Hülya 2 yaşlı oğlu Yigit Alpı da götürərək Suriyaya keçib. Qadının İŞİD terror təşkilatının sıralarına qatıldığı iddia olunur. Ramazan Bozkurtun dediyinə görə, arvadının Suriyanın Rəqqa şəhərində, İŞİD-in faktiki paytaxtında olduğunu öyrənib.**



"Arvadım məndən ayrı yaşamağa başlayandan sonra burka və çarşaba büründü. Apreldə onu "canlı bomba" şübhəsi ilə tutmuşdular" deyə, Karamandakı tələbə yataqxanalarından birində aşpaz işləyən Ramazan söyləyib. Arvadı ilə Muğla vilayətinin Dalaman rayonunda tanış olduğunu bildirən Ramazan Hülya ilə evlənəndən sonra Karamana qayıdıb. Bu nikahdan iki oğul doğulub.

# Çobanyastığının faydası



**Çobanyastığı insanın sağlamlığı üçün ən faydalı bitkilərdən biri sayılır. Çobanyastığı çox güclü antiseptik, mikrob və virusəleyhinə xüsusiyyətlərə malikdir. Angina və faringit zamanı çobanyastığı dəmləməsinin istifadəsi çox yaxşı effekt verir. Bunun üçün 1 xörək qaşığı quru çobanyastığı 1 stəkan qaynar suda dəmlənir, süzülür və gün ərzində bir neçə dəfə qarqara kimi istifadə olunur.**

Təbii ki, çobanyastığı dəmləməsi (bütün digər xalq təbabəti vasitələri kimi) yalnız köməkçi müalicəvi vasitə kimi (xəstəliyin həkim tərəfindən təyin olunmuş əsas müalicəsi ilə paralel olaraq) istifadə edilə bilər. Diş ağrısı, diş və damaq iltihabları, digər ağız boşluğu iltihabları (stomatit və s.) zamanı da çobanyastığı dəmləməsi çox yaxşı ağrısızlaşdıran və iltihab əleyhinə təsir edir.

Zökəm, haymorit, sinusitlər zamanı çobanyastığı dəmləməsi ilə burun boşluğunu yumaq və buruna çobanyastığı yağı (hər burun yoluna 1-2 damcı) damcılatmaq çox effektlidir. Çobanyastığı bütün mədə-bağırsaq sisteminə çox yaxşı təsir edir. Belə ki, çobanyastığı dəmləməsi (daxilə qəbul edilir) mədə-bağırsaq sistemində olan iltihablarla, parazitlərlə (lyambliya, askarid qurdu) uğurla mübarizə aparır, qarında köp, sancılar, ishal zamanı yaxşı kömək edir, ödqovucu təsirə malikdir, iştahanı artırır, mədə şirələrinin ifrazını stimullaşdırır. Qastrit, kolit, mədə və 12 barmaq bağırsağın xorası xəstəlikləri zamanı çobanyastığı dəmləmələri çox effektlidir. Çobanyastığı insanın sinir sisteminə da çox yaxşı sakitləşdirici təsir edir. Məhz bu səbəbdən çobanyastığı uşaqlar və böyüklər üçün nəzərdə tutulmuş bir çox sakitləşdirici preparatların tərkibinə daxildir.




**QOÇ** - Fəaliyyət zəminində müsbət dönüşlərə hazır olun. Həmkar və rəhbərlərinizlə münasibətləri mülayimləşdirin. Nahar ərəfəsində hansısa sürprizin şahidi olacağınız da gözlənilir.

**BUĞA** - Bu gün təmasda olduğunuz insanların qayğısına qalmağa çalışın. Onların problemlərinin öhdəsindən gələ bilərsinizsə, tələsin. Qoy bu addımınız Tanrı yanında savablarınızı artırsın.

**ƏKİZLƏR** - Pul məsələlərində kifayət qədər ehtiyatlı olun. Çünki göstərilən sahədə dələduzlarla rastlaşma ehtimalınız var. Kiməsə borc vermək və ya almaq fikrindən uzaq olun. Səfərə çıxmayın.

**XƏRÇƏNG** - Təxminən saat 16-ya qədər ümumi işlərinizdə gərginlik hökm sürəcək. Kənar təsirlərdən maksimum yayınmağa çalışın. Əks təqdirdə, nəzərdə tutduğunuz ədalətli işlər pozulacaq.

**ŞİR** - Müxtəlif yeniliklərlə zəngin olan bu gözəl təqvim sizə sevinc gətirəcək. Hansısa xoşagəlməzlik və ya konflikt barədə isə düşünməyə dəyməz. Qərarlarınızda qəti olun. Riskdən qorxmayın.

**QIZ** - Qarşılıqlı anlaşma üçün olduqca əhəmiyyətli vaxtdır. İşgüzar sövdələşmələr aparmaq, müqavilələr bağlamaq istəyirsinizsə, boş dayanmayın. Yarımçıq işlərinizi yoluna qoyun.

**TƏRƏZİ** - Astroloji göstəricilər ixtiyarınızda olan bu təqvimi rahat tərzdə başa vuracağınızdan xəbər verir. Şəxsi büdcənizdə müəyyən artımlar da mümkündür. Axşama yaxın qonaq getməyə dəyər.

**ƏQRƏB** - Bəlkə də bu ayın ən uğurlu gününü yaşayacaqsınız. Ətrafınızda cərəyan edən bütün proseslər zövqünüzə uyğun olacaq. Hətta ağlınıza gətirmədiyiniz istiqamətdən təkliflər də ala bilərsiniz.

**OXATAN** - Bəxtinizdə həddindən ziyadə uğurlu təqvim durur. Ötən ongünlükdə icra edə bilmədiyiniz işlərinizi məhz bu gündən başlayaraq yoluna qoya bilərsiniz. Böyük dəstək alacağınız da mümkündür.

**OĞLAQ** - Ulduzların düzümü sevindirici xəbərlər eşidəcəyinizi bəyan edir. Ola bilsin ki, uzaqda yaşayan doğmalarınızla bağlı hansısa könülaçan hadisə baş versin. Odur ki, əlaqə saxlayın.

**SUTÖKƏN** - Dünəndən mənfi yüklü Ay bürcünüzdə qərar tutduğundan daxili gərginliyiniz arta bilər. Lakin özünüzdə təpər tapıb mübahisələrdən yayınmalı, yalnız adi işlərin həlli ilə məşğul olmalısınız.

**BALIQLAR** - Qarşınızda duran gün daha çox şəxsi büdcənizin tənzimlənməsində əhəmiyyətli rol oynayacaq. Odur ki, ayın sonuna qədər maddi durumunuzu qənaətbəxş edəcək bu prosesə indidən başlamalısınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Təyyarədə doğuşa təzminat



**Təyyarədə uşaq dünyaya gətirən qadın uçuşun istiqamətini dəyişdiyi və əlavə xərclər ödənilməyə şərait yaratdığı üçün məhkəməyə verilib. "Business Standard" qəzetinin xəbərinə görə, Tailanddan Los-Ancelesə gedən "China Airlines"ə aid təyyarədə səyahət edən və hamiləliyinin 36-cı həftəsində olan qadının doğuş sancısı başlayıb. Sərnişinlər arasında olan bir qadın həkimin köməyi ilə qız uşağı dünyaya gəlib. Doğuş başladığı üçün təyyarə Amerikanın Alyaska ştatındakı hava limanına məcburi eniş edib. Ana və uşaq yaxınlıqdakı bir xəstəxanaya aparılıb. "China Airlines" şirkəti təyyarənin istiqamətini dəyişməsinin və təcili eniş etməsinin 33 min dollara başa gəldiyini deyib və ananı məhkəməyə verib. Hava yolu şirkəti qadının hamiləliyinin 36-cı həftəsində olduğunu bəyan etmədiyini irəli sürüb.**

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.